## Azərbaycan hərbçiləri Sarıqamış bölgəsində

Təlimlərdə Azərbaycan, Böyük Britaniya, Almaniya da daxil olmaqla 17 ölkənin hərbçiləri iştirak edirlər



**Türkiyənin Qars şəhərinin Sarıqamış bölgəsində "Qış-2023" hərbi təlimləri davam edir.**

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib. Təlimlərdə Azərbaycan, Böyük Britaniya, Almaniya da daxil olmaqla 17 ölkənin hərbçiləri iştirak edirlər. Məlumata görə, "Qış-2023" Türkiyə tarixinin ən geniş təlimlərindəndir. Təlimlərə xüsusi təyinatlı qüvvələr, komandolar, pilotlar cəlb ediliblər. Təlimlərdə texnikalar və silahlar sınaqdan keçirilir, verilən tapşırıqlar icra olunur.

## Zəngilan aeroportunda sərhəd-buraxılış məntəqəsi yaradılacaq



**Zəngilan Beynəlxalq Hava Limanında dövlət sərhədindən buraxılış məntəqəsi (Zəngilan şəhəri) yaradılacaq.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısına Zəngilan Beynəlxalq Hava Limanında dövlət sərhədindən buraxılış məntəqəsi (Zəngilan şəhəri) əlavə edilib.



## Mayda əfv sərəncamı imzalanacaq

Komissiyanın üç iclası keçirilib və 360-dan çox sənədə baxılıb

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı əfv sərəncamı imzalanacaq.**

Bunu Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.

Komitə sədri bildirib ki, artıq Əfv Komissiyasının üç iclası keçirilib: "360-dan çox sənədə baxılıb. Düşünürəm ki, iclaslar may ayına kimi davam edəcək".

*Xatırladaq ki, Prezident İlham Əliyevin 2022-ci ilin mayın 27-də "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam imzalamışdı.*

*Qeyd edək ki, 1995-ci ildən bu günə kimi əfvetmə ilə bağlı 68 fərman və sərəncam imzalanıb, 8987 məhkum əfv olunub. Bu sərəncamlardan 36-sı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanıb və həmin aktlar 5885 nəfərə şamil olunub.*


№ 14 (5775), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 yanvar 2023-cü il (cümə axşamı)




## Bayden: "Ukrayna ordusu əks-hücum əməliyyatları keçirməyə hazırlaşır"

**"Ukrayna ordusu əks-hücum əməliyyatları keçirməyə hazırlaşır". "Report" xəbər verir ki, bu barədə ABŞ prezidenti Cozef Bayden bildirib.**

"Yaz yaxınlaşdıqca Ukrayna qüvvələri tutduqları ərazinin təhlükəsizliyini təmin etməyə çalışır və əlavə əks-hücumlara hazırlaşır. Ərazilərini azad etmək üçün onlar qısa müddət ərzində Rusiya taktikasına və döyüş meydanı strategiyasına qarşı çıxa bilməlidirlər"-deyə, Bayden əlavə edib.

Eyni zamanda Bayden Ukraynaya 31 "Abrams" tankının tədarük ediləcəyini açıqlayıb.

"Bu gün mən bəyan edirəm ki, ABŞ Ukraynaya 31 Abrams tankı göndərəcək. Tankların Kiyevə çatdırılması vaxt aparacaq, lakin Birləşmiş Ştatlar tez bir zamanda Ukrayna hərbçilərini hazırlamağa başlayacaq".

## Dərmanlarla bağlı yeni sənəd hazırlanır

Nazirlər Kabineti deputatları da sənədin hazırlanmasına cəlb edib



**Yanvarın 25-də Milli Məclisin Səhiyyə komitəsinin 2023-cü il yaz sessiyasında ilk iclası keçirilib.**

Komitənin sədri Əhliman Əmiraslanov əvvəlcə 2022-ci il payız sessiyası dövründə komitədə görülən işlər barədə hesabatı təqdim edib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə komitənin 9 iclası keçirilib, 11 məsələ müzakirə edilib və onlardan 9-u üç oxunuşda baxılmış qanun layihələridir. Sonra Səhiyyə komitəsinin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsi təqdim edilib. Komitə sədri bildirib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən sənədlərin müzakirəsi, yeni qanun layihələrinin hazırlanması nəzərdə tutulub.

(səh.2)

# ABŞ fəallaşır

Azərbaycan və Ermənistan arasında yeni sənəd hazırlana bilər



"Bu sənəd Azərbaycanın 5 təməl prinsipini özündə əks etdirməklə çərçivə sazişini nəzərdə tutur"

**ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından danışıb.**

Bildirib ki, Vaşinqton davamlı sülhə nail olunması üçün həm üçtərəfli, həm də çoxtərəfli formatlarda iştirakını davam etdirir:

"Biz Ermənistan və Azərbaycanla birbaşa müzakirələrdə iştirak etməyə davam edirik. Bunu ikitərəfli edirik, öz tərəfdaşlarımızla birlikdə edirik, biz bunu çoxtərəfli institutlar vasitəsilə edirik. Ötən il bunu bir neçə dəfə üçtərəfli qaydada etdik. Çox problemli məsələlərin həlli üçün ən effektiv olan nədirsə, onu edəcəyik. Biz davamlı sülhə dəstəyimizdə sadiq olaraq qalırıq".

(səh.3)

# Müxalifətə güvən azdır

Kılıçdaroğlu Ərdoğana bir dəfə məğlub olub



**14 mayda Türkiyədə prezident və parlament seçkiləri eyni gündə keçiriləcək.**

Ekspertlərə görə, hər iki seçkinin məhz bu tarixə təyin edilməsi heç də təsadüfi deyil. Məsələ ondadır ki, 73 il öncə 1950-ci il 14 may tarixində Türkiyənin keçmiş baş naziri Adnan Menderes "Bəsdir! Söz növbəsi millətindir" deyərək 27 il hakimiyyətdə olan İsmet İnönünün Cümhuriyyət Xalq Partiyasını (CHP) məğlub etmişdi.

Bu, onu deməyə əsas verir ki, Ərdoğan da mayın 14-də həm parlament, həm də prezident seçkilərində qələbə qazanaraq tarixi təkrarlamaq və CHP başda olmaqla "Millət İttifaqı" üzərində qələbə qazanmaq istəyir.

(səh.4)



## Mirzoyanla Borel danışıb

Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri müzakirə olunub

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Brüsseldə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borellə regional məsələləri müzakirə ediblər.**

"Report" Ermənistan KİV-inə istinadən xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, görüş zamanı tərəflər regional təhlükəsizlik və sabitlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Mirzoyanla Borel Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi ətrafında cərəyan edən prosesləri müzakirə ediblər. Tərəflər Ermənistan-Türkiyə münasibətlərinin tənzimlənməsi prosesinə də toxunublar.



## Azərbaycanda virus sürətlə yayılır

İnfeksionist deyir ki, məktəblərdə lokal qapanmalara getmək lazımdır

**Bir müddətdir Azərbaycanda əhali arasında qrip simptomlu xəstəlik yayılıb. Həm böyüklər, həm də uşaqlarda təsadüf olunan virus sürətlə yayılır və həftələrlə davam edir.**

Sözügedən xəstəlik güclü boğaz ağrısı, yüksək hərarət, öskürək və qulaq ağrısı ilə müşayiət edilir.

(səh.3)

## 2 nəfər vəfat edib

42 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 42 yeni yoluxma faktı qeydə alınıb, 71 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 827 780 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 817 459 nəfər müalicə olunaraq sağalıb, 10 077 nəfər vəfat edib, aktiv xəstə sayı 244 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 294, hazırkı dövrədək isə 7 477 729 test aparılıb.*



## Paşinyan planlı hərəkət edir

Məqsəd odur ki, Rusiya Ermənistanı tərk etsin

(səh.4)



## Zahid Oruc dövlət qurumlarını tənqid edib

"Qaynar xətt"i olsa da, heç dəstəyi qaldırmaq istəmirlər"

(səh.4)

# XİN BMT-nin Əhali Fonduna cavab verib

## Azərbaycanın suveren ərazisi olan Laçın yolunda dinc etirazlar Azərbaycan xalqının legitim hüququdur

**"24 yanvar tarixində BMT-nin Əhali Fondunun Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı qərəzli, həqiqəti əks etdirməyən və təşkilatın mandatına aid olmayan məsələlərlə bağlı bəyanatı təəccüb və təəssüf doğurur".**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin BMT-nin Əhali Fondunun Laçın yolu ətrafında yaranmış vəziyyətlə əlaqədar bəyanatına dair şərhində bildirilib.



Qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 30 il ərzində öz evlərindən didərgin düşmüş, illərlə çadır şəhərciklərində, atılmış qatar vaqonlarında, düşərgələrdə heç bir sağlamlıq şəraiti olmayan mühitdə yaşamış, təhsil, səhiyyə və bütün digər hüquqlardan məhrum olmuş yüz minlərlə azərbaycanlı ailənin acınaqcaqlı vəziyyətinə münasibət bildirməyən BMT-nin Əhali Fondunun azərbaycanlıların legitim etirazlarına dair bəyanat verməsi qəbuledilməzdir.

"Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının, bu sərvətlərin Azərbaycandan Ermənistana daşınması və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının qarşısının alınması tələbi ilə Azərbaycanın suveren ərazisi olan Laçın yolunda dinc etirazlar Azərbaycan xalqının legitim hüququdur.

Erməni sakinlərin kompakt yaşadığı Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətlər Azərbaycanın milli təhlükəsizliyinə hədədir və belə qanunsuz fəaliyyətlərə son qoyulması zəruridir. Bu xüsusda, 2020-ci il 10 noyabr tarixli Üçtərəfli bəyanata uyğun olaraq, Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir. Təhlükəsizlik zəmanəti həmçinin Laçın yolundan sui-istifadənin qarşısının alınmasını ehtiva edir.

Xarici İşlər Nazirliyinin son bir ay ərzində verdiyi bəyanatlarda qeyd edildiyi kimi, Laçın yolunda nəqliyyat vasitələrinin və sakinlərin hərəkətinə etirazçılar tərəfindən heç bir maneə tətbiq edilmir və guya etirazların bölgədə "humanitar fəlakət" yaratdığı barədə iddialar əsassızdır. Etirazlar başlayan gündən yoldan istifadə etməklə sayı 1000-dən artıq olan nəqliyyat vasitələri sakinlərin istifadəsi üçün gündəlik tədarük malları, tibbi ləvazimatlar və zəruri tibbi xidmətlərlə təmin olunublar.

Azərbaycan hökuməti həmçinin erməni sakinlərinin üzləşə biləcəyi bütün humanitar ehtiyacları operativ şəkildə həll etməyə hazır olduğunu dəfələrlə bəyan edib. Bütün bunlara baxmayaraq, özlərini erməni sakinlərin "liderləri" kimi təqdim edən şəxslər öz qanunsuz fəaliyyətlərini davam etdirmək məqsədilə yerli əhalidən sipər kimi istifadə etməkdə davam edir və onların hərəkət azadlığına mane olurlar.

*Qeyd edilənlərlə əlaqədar, BMT-nin Əhali Fondunu qərəzsiz olmağa və təşkilatın nüfuzuna xələl gətirəcək hərəkətlərdən və açıqlamalardan çəkinməyə çağırırıq", - XİN-dən vurğulanıb.*

# Ceyhun Bayramov İƏT-in Baş katibi ilə telefonla danışıb

**25 yanvar 2023-cü il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha ilə telefon danışığı baş tutub.**




Nazirlikdən "Şərq"ə verilən xəbərə görə, telefon danışığı zamanı, Azərbaycan və İƏT arasında mövcud əməkdaşlıq, təşkilatın gündəliyində duran aktual məsələlər və gələcək planlar müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov, Azərbaycan ilə İƏT arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni, təhsil və s. istiqamətlərdə faydalı və səmərəli əməkdaşlığın mövcud olduğunu vurğulayıb. Baş katibin ölkəmizə səfəri zamanı və BMT Baş Assambleyası çərçivəsində keçirilmiş görüşlərdə aparılmış müzakirələr məmnuniyyətlə xatırlanıb.

Tərəflər ötən il ərzində keçirilən birgə tədbirlərin uğurlu təşkilinə istinad edərək, 2023-cü ildə də keçirilməsi nəzərdə tutulan tədbirlər, o cümlədən cari ilin mart ayında Mavritaniyada baş tutacaq İƏT Xarici İşlər Nazirləri Şurasının 49-cu Zirvə toplantısına hazırlıq işləri barədə fikir mübadiləsi aparıblar.

Beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən mədəniyyətlərarası, dinlərarası dialoqa təhdid törədən İslamafobiya və terrorçuluq meylləri, yoxsulluq ilə mübarizədə İƏT üzv dövlətlərinin həmrəyliyinin, habelə birgə səylərinin əhəmiyyəti vurğulanıb.

Telefon danışığı zamanı, digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Müzakirə edilən mövzular açıqlanmır

## Azərbaycan-İran münasibətlərində gərginlik çox irəliləyib

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı Hüseyn Əmir-Abdullahianla görüşüb. Görüş Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 26-cı iclası çərçivəsində baş tutub.**

Azərbaycan xarici işlər naziri iranlı həmkarı ilə görüşdə regional və qarşılıqlı maraq doğuran məsələləri müzakirə edib. Eyni gündə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb. Görüşlərdə müzakirə olunan məsələlərlə bağlı detallı və geniş açıqlamalar verilməyib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Azərbaycan-İran münasibətlərdə gərginlik o qədər irəliləyib ki, müzakirə edilən mövzuların açıqlanmamasına üstünlük verilir.** Ekspertə görə, Tehran Azərbaycanla münasibətlərdəki gərginliyin miqyasını azaltmaq istəyirsə, Azərbaycanın daxili işlərinə, hansı dövlətlə dost və tərəfdaş olma seçimimizə qarışmamalıdır: "İran Zəngəzur dəhlizinin reallaşmasına əngəl olmamalıdır. Din xadimləri, generalları, deputatları Azərbaycan əleyhinə çıxış və açıqlamalarına son qoymalıdırlar. Tehranın bu minimum şərtləri yerinə yetirəcəyinə inam azdır. Digər tərəfdən İranın xarici işlər naziri və ya ölkəmizdəki səfiri vəziyyətin düzəlməsini istəyirlərsə belə, bu, onlardan asılı olan məsələ deyil. Tehran və Qumdakı mühafizəkar dairələrin, o cümlədən SEPAH generallarından birinin anti-Azərbaycan açılama verməsi və ya internet görüntüsü paylaşması ilə diplomatların münasibətlərin normallaşdırılması üçün fəaliyyətlərinin üstündən xətt çəkəcək. Bu, dəfələrlə olub. İran rəsmilərinin və diplomatlarının əzbərlədikləri açıqlama var: "Bölgəyə aid olmayan ölkələrin işlərimizə qarışmasına imkan verilməməlidir".

"İran Zəngəzur dəhlizinin reallaşmasına əngəl olmamalıdır. Din xadimləri, generalları, deputatları Azərbaycan əleyhinə çıxış və açıqlamalarına son qoymalıdırlar"



Tehran Ermənistanı dəstəkləyir və iranlı rəsmilər "Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir" açıqlamasını səsləndirirlər. Ancaq hazırda məhz rəsmi İrəvan Tehranın bu tezisinə tərs siyasət yürüdür".

**Analitik vurğulayıb ki, Avropa İttifaqı monitorinq missiyasını bölgəyə dəvət edən Ermənistandır. Azərbaycan isə bunun əleyhinədir:** "Həmin missiyanın tərkibində Fransa geniş şəkildə təmsil olunacaq. Tehran-Paris münasibətləri gərgindir. Belə çıxır ki, İranın regional maraqları üçün ən böyük təhlükə rəsmi İrəvanın siyasəti ilə bağlıdır. Kreml Ermənistan hakimiyyətinin Avropa İttifaqı missiyasının Azərbaycanla təmas xəttinə dəvət edilməsini tənqid edib, bunun mövcud problemləri həll etməyəcəyi qənaətindədir. Tehranın Avropa İttifaqı missiyası ilə bağlı hələ ki, açıqlaması yoxdur. Çünki Tehran İran sərhədinə yaxın ərazidə yerləşəcək Avropa İttifaqının missiyasını tənqid edəcəksə, avtomatik həmin missiyanı bölgəyə dəvət edən Ermənistanı da tənqid etməlidir. Tehran Ermənistanı tənqid etməyə hazır deyil. Görünür, Tehran eyni zamanda həm Bakı, həm də İrəvanla münasibətləri gərginləşdirmək istəmir. İranın Azərbaycanla münasibətləri uzun illlərdir enişli-yoxuşludur. Ermənistanla münasibətlərdə isə heç zaman problem yaşamayıb. Ona görə də İran Ermənistana yönəlik siyasətini dəyişməyə hazır deyil. Halbuki Avropa İttifaqı missiyasını ən azı iki il müddətinə bölgəyə dəvət edən İrəvan Rusiya ilə yanaşı, İranın maraqlarını da nəzərə almayıb".

**İsmayıl Qocayev**



# Deputat müzakirələr aparılmasını istəyir

## "Sosial şəbəkələr cəmiyyətimizin gələcəyinə böyük zərbə vurur"

**"Sosial şəbəkələrdə insan hüquqlarının qorunması vacib məsələdir. Bununla bağlı geniş müzakirələr aparılmalıdır".**

Bu barədə Parlamentin iclasında deputat Elşad Mirbəşiroğlu deyib. Millət vəkilinin sözlərinə görə, sosial şəbəkələri tənzimləyən qanunvericilik olmalıdır: "Biz bu məsələ ilə bağlı geniş müzakirələr aparmalıyıq. Ona görə ki, sabah sosial şəbəkələr haqqında qanun layihəsi hazırlananda tənqidlər olmasın. Bu istiqamətdə cəmiyyətin sifarişini müəyyən etməliyik, sosial şəbəkələri tənzimləyən qanun layihəsi olmalıdır. Sosial şəbəkələr bizim cəmiyyətimizin gələcəyinə böyük zərbə vurur. Orada azyaşlı uşaqlarla bağlı yayılan videolar adamı dəhşətə gətirir. Bu məsələləri ciddi şəkildə müzakirə etməliyik".

**İsmayıl**

# Dərmanlarla bağlı yeni sənəd hazırlanır

## Nazirlər Kabineti deputatları da sənədin hazırlanmasına cəlb edib

**Yanvarın 25-də Milli Məclisin Səhiyyə komitəsinin 2023-cü il yaz sessiyasında ilk iclası keçirilib. Komitənin sədri Əhliman Əmiraslanov əvvəlcə 2022-ci il payız sessiyası dövründə komitədə görülən işlər barədə hesabatı təqdim edib.**

Diqqətə çatdırılıb ki, hesabat dövründə komitənin 9 iclası keçirilib, 11 məsələ müzakirə edilib və onlardan 9-u üç oxunuşda baxılmış qanun layihələridir. Sonra Səhiyyə komitəsinin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsi təqdim edilib. Komitə sədri bildirib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən sənədlərin müzakirəsi, yeni qanun layihələrinin hazırlanması nəzərdə tutulub.

**Komitə sədri "İcbari tibbi sığorta haqqında" yeni qanunun qəbulunu təklif edib**

*Komitə sədri Əhliman Əmiraslanov deyib ki, "Əhalinin sağlamlığı haqqında" yeni qanun layihəsi hazırlanacaq. Onun sözlərinə görə, səhiyyə qurumları bununla bağlı müraciət edib:* "İcbari tibbi sığorta haqqında" qanun qəbul olunsa, yaxşı olar. İcbari tibbi sığortanın tətbiqi üçün 100-dən çox qanuna dəyişiklik etmişdik. Ondansa yeni qanunun olması yaxşı ola bilər".

Əhliman Əmiraslanov bildirib ki, "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi haqqında çox danışılıb: "Biz bunu yenə iş planına salmışıq. Bu qanun qəbul edilməlidir. Ümid edirik, bu sessiyada bunu qəbul edəcəyik. Bu qanunun önəmini çox demişik".

*Deputat Kamilə Əliyeva deyib ki, məktəblərdə uşaqlar arasında hansısa xəstəliklər gizli qalır. O bildirib ki, "Uşaqların icbari dispanserizasiyası haqqında" qanunumuz var:* "Amma uşaqlara yoxlanışda ancaq sağlam olduqları yazılır. Bu gün mediada hər gün eşidirik ki, hansısa məktəbdə uşaq ölüb. Bu qanunla bağlı bir dinləmə keçirək və bu məsələni müzakirə edək".

*Komitə sədri Əhliman Əmiraslanov bildirib ki, bu, çox vacib məsələdir:* "Tək uşaqların yox, ölkədə bütün insanların dispanserizasiyası məsələsi çox vacibdir. Mən də mətbuatdan uşaqların ölümü xəbərlərini oxuyuram. Deməli, bu məsələyə səthi yanaşılır. Bunu aidiyyəti qurumlarla müzakirə etmək olar".

**"Rezidentlərə aylıq 350 manat verilməsi səhiyyədə kadr islahatına zərbədir"**

*Komitə sədri Əhliman Əmiraslanov deyib ki, ilk olaraq rezident göndərmək üçün 31 xəstəxana nəzərdə tutulmuşdu:* "Hesab edirdim ki, bu, həddən artıq çoxdur. Bu gün hər xəstəxanaya rezident göndərmək olmaz. Bizim səhiyyə naziri ilə də söhbətimiz olub. Bu xəstəxanaların sayı azaldılmalıdır. Rezident hazırlaya bilən xəstəxanalara, klinikalara rezidentlər göndərilməlidir. İmkanları məhdud xəstəxanalara rezident göndərmək olmaz".

Deputat Rəşad Mahmudov isə təklif edib ki, rezidentura ilə bağlı komitədə dinləmə keçirilsin: "Rezidentlərə aylıq verilən 350 manat çox azdır, bu, səhiyyədə kadr islahatına vurulan zərbə deməkdir".

**"Sağlamlıq arayışının rüsumu kasıb ailə üçün bir kisə un deməkdir"**

*Deputat Məlahət İbrahimqızı deyib ki, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Nazirlər Kabinetinə hesabat verdiyi kimi, Milli Məclisin Səhiyyə komitəsinə də hesabat versin:* "Belə olan halda biz prioritetləri seçə bilərik. Onsuz da hesabat hazırlayırlar, həmin hesabatın surəti bizim komitəyə göndərilsin. 2022-ci ildə 2021-ci ilə nəzərən dializə gedən xəstələrin sayı 13 faiz artıb. Araşdırılmalıdır ki, bu, niyə belə olub. Digər tərəfdən, ölkəmizdə icbari tibbi sığortanın tətbiqi ilə bağlı uğurlu addımlar atılır. Bu gün tibb işçiləri də, seçicilər də zərfə daxil olmayan pullu xidmətlərlə bağlı şikayətlər edirlər. Məsələn, sağlamlıq arayışının rüsumu 41 manatdır. Bu, kasıb ailə üçün bir kisə un deməkdir. Taarif Şurasında həkim olub-olmadığını bilmirəm. Amma bu məsələyə komitədə baxaq. Eyni zamanda təklif edirəm ki, komitədə psixoloji xidmətlə bağlı dinləmə keçirək". Komitə sədri Əhliman Əmiraslanov Məlahət İbrahimqızının təklifini dəstəkləyib: "Bu qurumların hesabatları onsuz da hazırlanır. Bunu bizə də təqdim etmələri üçün həmin qurumlarla danışıqlar apara bilərik".




**"Uşaq doğulandan sonra təqibi mexanizmini formalaşdırmaq lazımdır"**

*Deputat Müşfiq Məmmədli deyib ki, uşaq doğulandan sonra təqibi mexanizmini formalaşdırmaq lazımdır:* "Uşaqların icbari dispanserizasiyası haqqında" qanun üçün hökumət tərəfindən kifayət qədər vəsait ayrılır. İcbari tibbi sığortanın tətbiqindən sonra bunun tətbiqində problemlər yaranıb". Parlament üzvü bildirib ki, doğum evindən çıxan uşaqların təqibi mexanizmini formalaşdırmaq lazımdır: "Bu məsələ həm TƏBİB, həm də İTSDA qarşısında qaldırmışıq. Bununla TƏBİB məşğul olur. Biz əvvəl olan mexanizmi yenidən tətbiq etməliyik. Hazırda əsas məsələ uşaq doğulandan sonra onun təqibi məsələsidir".

Komitə sədri qeyd edib ki, bunu TƏBİB-lə müzakirə etmək lazımdır.

*Deputat İlham Məmmədov deyib ki, ailə həkimi ilə bağlı problem var, bununla bağlı məsələyə baxılmalıdır. İ.Məmmədov dərman vasitələri ilə bağlı problemə də toxunub:* "Bununla bağlı dinləmə keçirək və problemli məsələləri aidiyyəti qurumlar qarşısında qaldıraq".

*Komitə sədri Əhliman Əmiraslanov Baş nazirin dərman vasitələri ilə bağlı yeni sənəd hazırlandığını söylədiyini xatırladıb:* "Baş nazir tapşırıq vermişdi ki, sənədin hazırlanmasında bizim komitə üzvləri də iştirak etsin. Bu yaxınlarda bizim iştirakımızla görüş oldu. Deputat Kəmaləddin Qafarov da iştirak edirdi. Dərman vasitələri gömrükdə saxlanılır. Bununla bağlı da görüşümüz oldu. Sənəd hazırlanma mərhələsindədir. Bu yaxınlarda bizim yenə görüşümüz olacaq".

**Parlamentdə ortez və protezə dair dinləmə keçirilməsi təklif olunub**

*Deputat Soltan Məmmədov deyib ki, gələn həftədən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə tibbi tullantıların idarə olunması ilə bağlı yaradılmış İşçi Qrupla görüşlər başlayacaq. O bildirib ki, tibbi tullantıların idarə olunması ilə bağlı TƏBİB, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti ilə birgə araşdırmalar və qiymətləndirmələr aparılıb:* "Qanunvericilik bazası araşdırılıb. Gələn həftədən artıq bu sessiyada hazırlıq səviyyəsində dinləmə həyata keçirilməsi üçün İşçi Qrupla da görüşlərə başlayacağıq". S.Məmmədov ortez, protez sahəsində görülən işlərlə bağlı da komitədə dinləmənin keçirilməsini təklif edib: "Səhiyyə sistemində ortez, protez mərkəzlərində çalışan mütəxəssislərin xüsusi tibbi biliklərə malik olması, eyni zamanda onların fəaliyyətinin tənzimlənməsinin monitorinqi çox vacib məsələdir. Düşünürəm ki, bununla bağlı müəyyən tədbirlər görməyə ehtiyac var. Bu məsələdə Səhiyyə Nazirliyi ilə kiçik qrup şəklində bu sahədə qiymətləndirmələr aparaq. Ehtiyac olduğu halda Səhiyyə Nazirliyinin iştirakı ilə bir dinləmə keçirək. Ən azından bizə məruzə olunsun ki, bu sahədə hansı işlər görülüb".

Komitə sədri Əhliman Əmiraslanov bildirib ki, protezlər çox vacib məsələdir, təklifi bəyənir: "Son illərdə bu sahədə çox işlər görülür. Bununla siz məşğul olun. Aidiyyəti qurumlarla bu məsələni müzakirə edin və dinləmə lazımdırsa, keçirək".

**Əlil və autizmli uşaqları olan analara güzəştlər edilməsi təklif olunub**

*Deputat Jalə Əhmədova deyib ki, öhdələrində azyaşlı və əlil övladları olan tənha analar var:* "Onların iş saatı ilə bağlı problemləri var. Təklif edirəm ki, iş yerlərində belə analar müəyyən edilib, onlara güzəştlər tətbiq edilsin. İkinci məsələ autizmli uşaqları olan valideynlərlə bağlıdır. Bu valideynlər işlə təmin olunma zamanı onlara üstünlük verilməsi ilə bağlı güzəştlər istəyir. Bunun qanunvericilikdə öz əksini tapmasını təklif edirəm".

**İsmayıl Qocayev**



# ABŞ fəallaşır

## Azərbaycan və Ermənistan arasında yeni sənəd hazırlana bilər

**ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından danışıb. Bildirib ki, Vaşinqton davamlı sülhə nail olunması üçün həm üçtərəfli, həm də çoxtərəfli formatlarda iştirakını davam etdirir:**

”Biz Ermənistan və Azərbaycanla birbaşa müzakirələrdə iştirak etməyə davam edirik. Bunu ikitərəfli edirik, öz tərəfdaşlarımızla birlikdə edirik, biz bunu çoxtərəfli institutlar vasitəsilə edirik. Ötən il bunu bir neçə dəfə üçtərəfli qaydada etdik. Çox problemli məsələlərin həlli üçün ən effektiv olan nədirsə, onu edəcəyik. Biz davamlı sülhə dəstəyimizdə sadiq olaraq qalırıq”. Prays vurğulayıb ki, ABŞ tərəflər arasındakı danışıqlarda əvvəlcədən gəldiyi qənaət əsasında iştirak etmir. O əlavə edib ki, Vaşinqton Azərbaycan və Ermənistan arasında uzun müddətdir ayrılıqlara səbəb olmuş məsələlərin həlli və davamlı sülhə nail olunması üçün tərəflər arasında birbaşa dialoq görməyə ümid edir. Xatırladaq ki, Praysın bəyanatından bir gün qabaq ABŞ dövlət katibi Entoni Blinken Prezident İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Blinken Amerikanın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına sadiqliyini ifadə edib və sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini bildirib. Danışıq əsnasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

“Bu sənəd Azərbaycanın 5 təməl prinsipini özündə əks etdirməklə çərçivə sazişini nəzərdə tutur”

**Milli Cəbhə Partiyasının sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə açıqlamasında bildirib ki, Vaşinqtonun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında çərçivə sazişinin imzalanması mümkündür. Analitikin sözlərinə görə, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi üçün yeni sənəd hazırlanır:** ”Bu sənəd Azərbaycanın 5 təməl prinsipini özündə əks etdirməklə çərçivə sazişini nəzərdə tutur. Ermənistan tərəfi sülh müqaviləsinə imza atmağa tələsmir və ölkədə konstitusiya referendumu planlaşdırır. Vaşinqtonun normallaşma prosesində aktivliyi Rusiyani regiondan çıxarmaq və Cənubi Qafqazda möhkəmlənməkdir. Paralel olaraq Avropa İttifaqının ”mülki missiyası”nın da regiona göndərilməsi Ermənistan-Rusiya əlaqələrinin pozulmasına xidmət edir. Burada Fransanın pozuculuq fəaliyyəti də mümkündür. Rəsmi Bakını narahat edən əsas məqam budur. Bakı Vaşinqtonla birgə Fransanın pozuculuğunun da qarşısını ala bilər. Lakin çərçivə sazişinin bağlanması üçün liderlərin görüşü təşkil edilməlidir. Şübhəsiz, çərçivə sazişinin imzalanmasının nə qədər effektli olacağı da sual doğurur. Ermənistan rəhbərliyi Azərbaycanın tələblərini praktiki həyata keçirməlidir ki, ortada nəticə olsun. Yox əgər Ermənistan Qərbin ona verdiyi siyasi və təhlükəsizlik dəstəyindən Azərbaycana qarşı siyasi təzyiq kimi istifadə edəcəksə, yeni hərbi toqquşma qaçılmaz olacaq. Bu da Nikol Paşinyanın siyasi iflasına gətirib çıxara bilər. Qarabağla bağlı diplomatik danışıqlar mümkün deyil. Qarabağdakı ermənilər və problemlərin həlli yolu alternativsiz güc tətbiqindən keçir. Çünki Ruben Vardanyan israrla ”müstəqillik” deyir. Bu da Kremlin birbaşa təlimatına əsaslanır”.

**İsmayıl Qocayev**

# Azərbaycanda virus sürətlə yayılır

## İnfeksionist deyir ki, məktəblərdə lokal qapanmalara getmək lazımdır



**Bir müddətdir Azərbaycanda əhali arasında qrip simptomlu xəstəlik yayılıb. Həm böyüklər, həm də uşaqlarda təsadüf olunan virus sürətlə yayılır və həftələrlə davam edir.**

Sözügedən xəstəlik güclü boğaz ağrısı, yüksək hərarət, öskürək və qulaq ağrısı ilə müşayiət edilir.

Səhiyyə Nazirliyi də bir neçə gün əvvəl kəskin respirator virus infeksiyası ilə bağlı əhaliyə xəbərdarlıq etmişdi. Bildirilirdi ki, bəzi şəxslərdə xəstəlik əlamətlərinin qısa müddətdən sonra yenidən qayıtması və xəstəliyin dalğavari gedişi onlarda immunitetin zəif olması, ikincili bakterial infeksiyanın qoşulması və ya başqa respirator virusa yeni yoluxma ilə əlaqəli ola bilər.

**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə isə ”Şərq”ə açıqlamasında deyib ki, məktəb və bağçaların açıq olması xəstəliyin yayılmasında böyük rol oynayır:** ”İki həftə məktəb və bağçaların fəaliyyəti dayandırılsa, bəlkə də virusun yayılması azalar. Uşaqların halı çox bərbaddır. İnfluenza virusu bir bəladır”.

**İnfeksionist həkim Mərdan Əliyev isə ”Şərq”ə açıqlamasında deyib ki, virus yayılan məktəblərdə lokal qapanmalara getmək əsas məsələdir:** ”Hər hansı məktəb, yaxud sinifdə yoluxma halları müşahidə edilərsə, virusun yayılmasının qarşısını almaq üçün lokal qapanma və qorunma tədbirlərini həyata keçirmək lazımdır. Belə hallarda tədrisi onlayn formada davam etdirmək daha yaxşıdır”.

Virusun sadəcə uşaqlar deyil, böyüklər arasında da sürətlə yayıldığını vurğulayan infeksionistin sözlərinə görə, xəstəliyin əlamətləri COVID-19 virusu ilə oxşarlıq təşkil etməsinə baxmayaraq, analizlərdə koronavirus testinin nəticəsi neqativ göstərir: ”Sağlam insanlar üçün təhlükə ehtimalı olmasa da, risk qrupuna daxil olan şəxslər bu xəstəlikdən özlərini gözləməlidirlər. Yaşı 65-dən yuxarı olan, xroniki xəstəlikdən əziyyət çəkən insanlar, onkoloji xəstələr, qaraciyər sirrozu və revmatoid artriti olan şəxslər də bu virusa yoluxan zaman xəstəlik müddətini daha ağır keçirir”.

**Şəymən**



# Azərbaycan Naxçıvana birbaşa yol əldə etməlidir

## İranla dialoq kanallarının tam kəsilməsi mümkün deyil

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı Hüseyn Əmir-Abdullahianla görüşüb.**

Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov tviterdə məlumat yayıb.

Görüşdə regional və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

**Görüşün gizlinlərini ”Şərq”ə açan Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli qeyd edib ki, iki ölkə arasında açıq qalan bir çox məsələlər var:**

”İran tərəfi hələ də Azərbaycana qarşı tənqidlərini dayandırmayıb. Rəsmi Bakı isə vaxtaşırı ölkənin birinci kanalı vasitəsilə rəsmi Tehranı başa düşəcəyi dildə mesajlar verir. Mən şübhə etmirəm ki, Anna Akopyanın İrana səfəri də bu prizmadan qiymətləndirilməlidir.

Yəni biz yaxşı bilirik ki, bu səfərdə də kifayət qədər mühüm məsələlər yer almışdı. Bütövlükdə isə iki ölkənin dialoq kanallarını tam kəsməsi mümkün deyil. Bunlar vaxtaşırı müzakirə olunmalıdır.

Müxtəlif platformalarda davamlı şəkildə əlaqənin saxlanılması və danışıqların aparılması isə çox mühümdür. Müzakirə olunacaq mövzular içərisində isə ən mühümü Azərbaycanın Naxçıvana birbaşa yol əldə etməsidir.

Bu yolun bir hissəsi İrandan, digəri isə Zəngəzurdan keçir. Biz bu məsələlərdə problemlər yaşayırıq. Bunlar mütləq danışıqlar masasında həll edilməlidir”.

**Nihat Müzəffər**

# Rəsmən elan edildi

## ABŞ Ukraynaya Abrams tankları göndərir



**Müharibənin başladığı 24 fevral 2022-ci ildən bu yana Ukraynaya silah-sursat dəstəyi verən Qərb ölkələri ”Patriot” hava hücumundan müdafiə sistemlərindən sonra daha radikal addım atmağa hazırlaşır.**

Türkiyənin ”Milliyet” qəzeti yazıb ki, Rusiya rəhbəri Vladimir Putinin hücum əmri ilə Ukraynaya daxil olan işğalçı qüvvələr son 11 ayda bəzi şəhərləri xəritədən silsə də, tarixi məğlubiyyətə uğrayıb. Nəşr bildirib ki, bir neçə günə Kiyevi ələ keçirməyi və Ukraynada hakimiyyətə marionet administrasiyasını gətirməyi planlaşdıran Kremlin məğlubiyyət siqnalı ilk həftələrdə gəlməkdədir: ”Rus işğalçıları apreldə Kiyev yaxınlığından geri çəkilməli oldular. Şimal cəbhəsinin bağlanması ilə şərq və cənub cəbhələrində müharibə şiddətləndi. Rusiya qoşunları aylarla davam edən atəşdən sonra liman şəhəri Mariupolu ələ keçirə bilib. Şərqdə isə demək olar ki, bütün Donetsk və Luqansk işğal edilib. Lakin iyun ayında Ukraynaya çatan silah tarazlığı kökündən dəyişdi”. Qeyd olunub ki, uzun mənzilli çoxmənzilli reaktiv yaylım atəşi sistemi HIMARS-ın Ukraynaya gəlməsi əvvəlcə rus işğalçılarının irəliləyişini dayandırdı, sonra əks-hücum baş tutdu: ”Yayın sonunda hərəkətə keçən Ukrayna qoşunları ilk olaraq bir neçə gün ərzində ildırım basqını ilə ölkənin ikinci böyük şəhəri Xarkovu rus işğalçılarından təmizlədilər. Rusiya sərhədinə yaxın olan Xarkovda qazanılan qələbə bütün dünyada heyrətə səbəb olub. Ukraynalılar payızda gözlənildiyi kimi cənuba, Xersona yollandılar. Xerson və Krım yarımadasını HIMARS ilə birləşdirən körpülərin dağıdılması ilə rusların küncə sıxışdığı bir vaxtda Putin müharibədə ən utancverici addımını atmalı oldu. Xersondan geri çəkilən rus qoşunları ələ keçirə bildikləri yeganə regional paytaxtı da itirdilər”.

Vurğulanıb ki, oktyabrın əvvəlindən Ukraynanın kritik infrastruktur obyektlərini raketlərlə bombalayan Rusiya ordusu hazırda Donbassda Baxmutu ələ keçirməyə çalışır: ”2022-ci ilin sentyabrında aylarla təxirə saldığı səfərbərlik qərarını ”qismən” elan etməli olan Rusiya lideri Putin, nəhayət, Ukrayna bataqlığından xilas olmaq üçün işğal komandirini dəyişdi və Baş Qərargah rəisi Valeri Gerasimov təyin olundu.

Qəzet yazıb ki, işğal başlayandan Ukraynaya silah göndərən Qərb ölkələri müharibənin miqyasını addım-addım dəyişdi: ”İşğalın ilk aylarında Ukrayna Türkiyədən aldığı minlərlə ”Javelin” və ”Nlaw” tank əleyhinə raketlərdən, həmçinin ”Bayraktar TB2” pilotsuz uçuş aparatlarından istifadə edib.

Sonra uzun mənzilli HIMARS, M270 və M777 raketləri cəbhəyə buraxıldı. Rusiyanın raket əleyhinə hava hücumundan müdafiə sistemləri S-300, IRIS-'Ts, NASAMS, Starstreaks və nəhayət, ”Patriotlar” sahəyə endi. Yazda yeni hücuma hazırlaşan Ukraynanın Qərb ölkələrindən aylardır tələb etdiyi müasir tankları 2023-cü ilin yanvarını gözləmək lazım idi. Güclü təzyiq altında Almaniya uzun müddət Leopard 2 tanklarının Ukraynaya göndərilməsinə müqavimət göstərdi. Həftə sonundan bəri Berlindən yaşıl işıq siqnalları gələrkən, ”Wall Street Journal” çərşənbə axşamı günü gündəmi alt-üst edən xəbəri açıqladı”.

Nəşrin məlumatına görə, ABŞ Ukraynaya ”Abrams” tankları göndərir: ”Almaniya da ”Bəbir”lərin Şərqi Avropa ölkəsinə deportasiyasını qəbul etdi. ABŞ-nin Ukraynaya onlarla ”M1 Abrams” tankı göndərəcəyinin tezliklə ictimaiyyətə açıqlanması gözlənilir. Amerika mətbuatında ”M1 Abrams” tankları ilə bağlı açıqlamanın bu gün veriləbiləcəyi xəbərləri dərc olunub. ”New York Times” qəzetinə danışan adının açıqlanmasını istəməyən məmur bildirib ki, Ukraynaya göndəriləcək tankların sayı 30-dan 50-yə qədər ola bilər. ”Der Spiegel” jurnalı isə bu səhər Almaniya parlamentində çıxış edəcək Baş nazir Olaf Şolzun Ukraynaya 14 ”Leopard” tankının göndərilməsini qəbul etdiyini yazıb. Berlin administrasiyası günorta saatlarında Ukraynaya ”Leopard” tankı göndərəcəyini rəsmən bəyan edib. Hökumət sözçüsü Steffen Hebestreit bildirib ki, ilk növbədə 14 ”Leopard” 2 Ukraynaya gələcək. Qısa müddətdə Ukrayna əsgərlərinin Almaniyada tank hazırlığına başlanacaq. Berlin administrasiyası tankların arsenalını təmin edəcək. Almaniya da üçüncü ölkələrin Ukraynaya tank göndərməsinə icazə verib. Bu, Polşa və digər Avropa ölkələrinə yol açdı. Qərarın təsiri qısa müddətdə dalğalar şəklində yayılacaq, Polşa ilə yanaşı Norveç kimi ölkələrin də Ukraynaya ”Leopard” tankları göndərəcəyi gözlənilir. Bundan əvvəl Amerika mətbuatında Almaniyanın ABŞ və Ukraynaya yalnız ”M1 Abrams” tanklarının da göndəriləcəyi təqdirdə ”Leopard 2” tankları göndərəcəyi ilə bağlı xəbərlər dərc edilmişdi və hər iki ölkə bu xəbərləri təkzib etmişdi”.

**İsmayıl**

**Türkiyə, İsveç və Finlandiya arasında NATO-ya üzv olmaq üçün danışıqlar Ankaranın tələbi ilə qeyri-müəyyən müddətə təxirə salınıb. İsveç və Finlandiya arasında üçtərəfli mexanizm çərçivəsində növbəti görüş fevralda Brüsseldə keçirilməli idi.**



# Ankara israrlı görünür

## Digər NATO ölkələrindən fərqli olaraq Türkiyə ABŞ-nin ruporu deyil

Lakin yanvarın 21-də radikal-sağçı Rasmus Paludanın Türkiyənin Stokholmdakı səfirliyi qarşısında Quranı yandırması gərginliyə və etiraza səbəb olub. Bundan əlavə, Stokholm hakimiyyəti yerli kürdlərə nümayiş keçirməyə və terrorçu PKK təbliğatı aparmağa icazə verib. Türkiyə Xarici İşlər Nazirliyi hadisəni İsveçin imzaladığı terror təşkilatlarının təbliğatının qarşısının alınmasına dair üçtərəfli memorandumun öhdəliklərinin pozulması adlandırıb. Qeyd olunub ki, Stokholmda Quranın yandırılması Avropada islamafobiya, irqçilik və ayrı-seçkiliyin səviyyəsindən xəbər verir. Türkiyənin milli müdafiə naziri Hulusi Akar da bildirib ki, Türkiyə hakimiyyəti İsveç və Finlandiyanın Ankara qarşısında öhdəliklərini yerinə yetirməsini və bu kimi hadisələrə ”son qoymasını” gözləyir. Bundan əvvəl isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, İsveçdə Quranın yandırılması ilə bağlı insidentdən sonra İsveç NATO-ya üzvlük məsələsində Türkiyə hakimiyyətinin dəstəyinə ümid edə bilməz. İddialar mövcuddur ki, Qərb İsveç və Finlandiyanın arxasında dayanacaq və Türkiyəyə qarşı təzyiqlər gücləndiriləcək.

May ayında keçiriləcək seçkilər ərəfəsində Qərb dairələrinin hərəkətə keçməsi təsadüfi deyil

**Politoloq Azər Niftiyev ”Şərq”ə açıqlamasında bildirib ki, dünya əhalisinin 25 faizi müsəlmandır və islamafobiya bəşəriyyətə təhdid yaradır:** ”Ən dəhşətlisi odur ki, son dövrlər dünyada islamafobiya meyilləri ciddi şəkildə artıb və müxtəlif dövlətlər, beynəlxalq dairələr də buna rəvac verirlər. Yaxın tarixə nəzər yetirsək görərik ki, Qərb dairələri siyasiləşmiş cəmiyyətlər üzərində dini ayrı-seçkiliyi artırdı və nəticədə terrorun tüğyan etməsinə şərait yarandı. Bundan sonra islam və terror terminləri arasında rabitə yaratmağa çalışdılar. Bu ənənəvi siyasət bu gün də davam edir. Danimarkalı siyasi partiya rəhbərinin Türkiyənin İsveçdəki səfirliyi qarşısında Quranı yandırması bunun bariz nümunəsidir. Onlar bu yolla milyardlarla müsəlmanın heysiyyəti ilə oynamaqla yanaşı, Türkiyəni də gözdən salmağa çalışırlar. Burada əsas məqsəd Türkiyəni islamçı dövlət kimi göstərmək, dünya dəyərlərindən uzaq düşdüyünü aşılamaq və daxildə nifaq toxumu səpməkdir. Bu mənada Türkiyə rəsmi dairələrinin son hadisəyə münasibəti adekvatdır. Rəsmi Ankara haqlı olaraq tələb edir ki, bu kimi ziyanlı və milyardlarla insanı aşağılayan rəftara son qoyulmalıdır”.

**Qərbin Türkiyəyə qarşı təzyiqlərindən danışan politoloq hesab edir ki, bu təzyiqlər nəticə verməyəcək:** ”Türkiyə milli maraqlara söykənən müstəqil siyasət yürüdür. Digər NATO ölkələrindən fərqli olaraq ABŞ-nin ruporu deyil və heç şübhəsiz, bu da öz növbəsində Qərb başbilənlərini qane etmir. Xüsusilə Rusiya ilə bağlı yürütdüyü siyasət, şimal qonşumuza qarşı embarqolara qoşulmaması ABŞ və Qərbi narahat edir. Qeyd etdiyim səbəblər üzündən Türkiyəyə qarşı illərdir təzyiqlər davam edir. May ayında keçiriləcək seçkilər ərəfəsində Qərb dairələrinin hərəkətə keçməsi təsadüfi deyil. Onlar bu cür ”siyasi texnologiyalar”la Türkiyə iqtidarını geri çəkilməyə təhrik etmək istəyirlər. Yəqin ki, seçkiöncəsi fəallıqlarını daha da artıracaqlar. Lakin bir məqam da var ki, seçkilərin taleyinə Türkiyə xalqı aydınlıq gətirəcək. Daxili təxribatlar, dolayı təhdidlər seçkilərin nəticəsinə təsir etməyəcək. Düşünürdülər ki, seçkilərə bir neçə ay qalmış durumda Ərdoğan Qərbə qarşı ritorikasını yumşaldacaq və bu ədalətsizliklə barışacaq. Lakin göründüyü kimi, belə olmadı. Türkiyənin rəsmi dairələri prinsipial və ardıcıl mövqe nümayiş etdirdilər”.

A.Niftiyev əlavə edib ki, İsveç baş verən hadisəyə görə Türkiyədən üzr istəməlidir: ”Bir tərəfdən deyirlər ki, biz Quranı yandıraq, PKK-ya dəstək göstərək, sizin heysiyyətinizlə oynayaq, terror təşkilatına meydan tanıyaq, digər tərəfdən də dəstək istəyirlər. Bu, absurd yanaşmadır və rəsmi Ankara baş verənlərə adekvat münasibət ortaya qoyur”.

**İsmayıl Qocayev**



# Paşinyan planlı hərəkət edir

## Məqsəd odur ki, Rusiya Ermənistanı tərk etsin

**Avropa İttifaqı (Aİ) Ermənistan-Azərbaycan sərhədinə növbəti missiyanın göndərilməsi barədə razılıq verib. Missiyanın ilkin mandatı 2 illik nəzərdə tutulacaq və operativ qərargahı Ermənistanda yerləşəcək. Mülki əməliyyatlara Aİ-nin Xarici Fəaliyyət Xidmətinin Mülki Planlama və Davranış üzrə idarəedici direktoru Stefano Tomat rəhbərlik edəcək.**

Yaxın gələcəkdə isə yerli səviyyədə əməliyyatlara nəzarət etmək üçün missiya rəhbəri təyin ediləcək. Missiyanın tərkibinin 100 nəfərdən ibarət olacağı deyilir. 2 illik missiya qərarı Ermənistanda böyük sevinclə qarşılanıb. Erməni siyasətçilər Aİ-nin növbəti təşəbbüsünü özləri üçün böyük fürsət kimi dəyərləndiriblər. Azərbaycan isə Aİ-nin sərhədə rəsmi Bakının razılığı olmadan iki illik ”mülki missiya” göndərilməsinə qarşıdır. Rusiya da həm xarici işlər naziri Sergey Lavrovun, həm Kreml sözçüsü Dmitri Peskovun diliylə Qərbin bölgədəki missiyasının əleyhinə olduğunu bəyan edib. Moskva bunu Cənubi Qafqaz regionunun qarışdırılmasına cəhd kimi dəyərləndirib. Kremldən bildirilib ki, sözügedən missiyanın göndərilməsinin müsbət nəticə verəcəyinə inanmır: ”Missiya əlavə gərginlik yaradacaq. Çünki buna Azərbaycanın da razılığı lazımdır. Unutmaq lazım deyil ki, söhbət Azərbaycanla sərhəddən gedir. Missiya Azərbaycanın razılığı olmadan sərhəddə yerləşdiriləcəksə, qeyri-məhsuldar olacaq. Sərhəddə etimadın möhkəmlənməməsi əlavə gərginliklər yarada bilər”.

**Günlərdir müzakirə olunan məsələni ”Şərq”ə təhlil edən politoloq Turab Rzayev deyib ki, Fransanın Cənubi Qafqazda özünə yer etmək siyasəti açıq-aşkar görünür. Analitikin sözlərinə görə, Fransa öz imperialist ambisiyalarını israrla davam etdirir:** ”Afrikada, Yaxın Şərqdə, Şərqi Aralıq dənizində nəyə nail olmaq istəyirsə,

“Baş nazirin ilk fürsətdə istəyini reallaşdıracağı bəllidir. Nəzərə alaq ki, ”mülki missiya” sadəcə sərhəddə deyil, bütün Ermənistan ərazisində vəzifələndirilib”

Cənubi Qafqaz regionunda da ona çalışır. Xatırlayırsızsa, Fransa Senatında Azərbaycana qarşı sanksiya qətnaməsi gündəmə gələndə, ölkəmizin qarşısında açıq tələb qoyulmuşdu. Deyilmişdi ki, əgər rəsmi Bakı sanksiyaya məruz qalmaq istəmirsə, Azərbaycan-Ermənistan sərhədində Fransa hərbi bazasının yerləşdirilməsinə icazə versin. Eyni zamanda Xankəndidə Fransanın xüsusi nümayəndəliyi açılsın. Bu, de-fakto Xankəndiyə muxtariyyət istəmək idi. Təbii ki, Azərbaycan tərəfi buna razılıq verə bilməzdi. Daha sonra Laçın yolundakı aksiya ilə bağlı ittihamlar səsləndi. Yolun bağlı olması barədə yalan xəbərlər tirajlandı, Qarabağ ermənilərinin ”blokadada” qaldığı iddia edildi və s. Bununla kifayətlənməyərək, Rusiyanın Gümrüdəki hərbi bazasına Qərb ölkələrinə məxsus hərbçilərin də yerləşdirilməsini təklif etdi. Göründüyü kimi, Fransanın əsas məqsədi müxtəlif bəhanələrlə öz ordusunu Cənubi Qafqazda yerləşdirməkdir. Əlbəttə, digər Qərb ölkələrinin fərqli reaksiyaları oldu. Məsələn, ABŞ və Böyük Britaniya Fransanın bu təklifini qulaqardına vurdular. Çünki Amerika və Böyük Britaniya Rusiya ilə hərbi birlikdə təmsil olunmaq istəmir. Onların hədəfi Moskvanı bölgədən çıxartmaqdır. Bunun əksinə, Rusiya isə çalışır ki, Cənubi Qafqazda əsas söz sahibi olsun və bölgəyə kənar gücləri buraxmasın. Ukrayna ilə davam edən savaş bitdikdən sonra yenidən regiona qayıtmağı planlayır. Ona görə Aİ-nin istənilən missiyasını narazılıq və şübhəylə qarşılayır. Bu məsələdə mövqelər üst-üstə düşdüyü üçün rəsmi Bakını dəstəkləyir”.

*T.Rzayev vurğulayıb ki, Ermənistanda eskalasiyanın artma və Ukrayna kimi poliqona çevrilmə riskləri var:* ”Baş nazir Nikol Paşinyan qarşısına konkret məqsəd qoyub ki, nəyin bahasına olur-olsun rus ordusunu ölkədən çıxaracaq. KTMT ilə bağlı qərarlar, Rusiya ilə diplomatik görüşlərdən imtina edilməsi, Gümrüdə ruslar əleyhinə aksiya bu istiqamətdə atılan addımlardır. Paşinyan planlı hərəkət edir. Məqsəd də odur ki, Rusiya Ermənistanı tərk etsin. Baş nazirin ilk fürsətdə istəyini reallaşdıracağı bəllidir. Nəzərə alaq ki, ”mülki missiya” sadəcə sərhəddə deyil, bütün Ermənistan ərazisində vəzifələndirilib. Ehtimal edirəm ki, bu qərar da gələcəkdə baş verə biləcək hadisələrin qarşısını almaq üçündür. Yəni Rusiya Ermənistanı tərketmə tələbinə qarşı ölkədə hərbçilərin əli ilə hansısa təxribata əl atarsa, Qərb ölkələrinə məxsus hərbçilər bunun qarşısını alsın. Adətən ABŞ-dən Ermənistana dövlət müşavirinin köməkçisi səviyyəsində şəxslər gəlirdi. Ancaq son dönəmdə Amerikadan daha yüksək ranqlı rəsmilər, o cümlədən Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri İrəvana gəldi. Bu da göstərir ki, Qərbin Ermənistandan regionla bağlı ciddi tələbləri var. Bölgənin barıt çəlləyinə çevrilməsi tamamilə realdır”.

**İsmayıl Qocayev**

# Müxalifətə güvən azdır

## Kılıçdaroğlu Ərdoğana bir dəfə məğlub olub



## Bu mənada “Millət İttifaqı” eyni nəticənin təkrar olmasını arzulamır

**14 mayda Türkiyədə prezident və parlament seçkiləri eyni gündə keçiriləcək. Ekspertlərə görə, hər iki seçkinin məhz bu tarixə təyin edilməsi heç də təsadüfi deyil. Məsələ ondadır ki, 73 il öncə 1950-ci il 14 may tarixində Türkiyənin keçmiş baş naziri Adnan Menderes ”Bəsdir! Söz növbəsi millətindir” deyərək 27 il hakimiyyətdə olan İsmət İnönünün Cümhuriyyət Xalq Partiyasını (CHP) məğlub etmişdi.**

Bu, onu deməyə əsas verir ki, Ərdoğan da mayın 14-də həm parlament, həm də prezident seçkilərində qələbə qazanaraq tarixi təkrarlamaq və CHP başda olmaqla ”Millət İttifaqı” üzərində qələbə qazanmaq istəyir. Ancaq CHP sədri Kamal Kılıçdaroğlu seçkinin 14 mayda olmasına qarşı çıxmayıb. Deyib ki, Türkiyədə prezident seçkilərinin mayın 14-də keçirilməsi onlar üçün problem deyil: ”Seçkilərin keçirilmə tarixini mayın 14-nə təyin etmək istəyirlər. Bizim tərəfimizdən heç bir problem yoxdur. Yetər ki, söz millətin olsun. Millət İttifaqı da bunu istəyir”.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə açıqlamasında bildirib ki, 14 maya az zaman qalıb və seçkiyə hazırlıq üçün kifayət deyil. ”Millət İttifaqı”nın namizədi isə bəlli deyil. Analitik deyib ki, hər nə qədər namizədin bəlli olduğu, sadəcə adının açıqlanmadığı deyilsə də, müxalifət daxilində namizəd böhranı davam edir:** ”Xarici təsirlər səbəbindən Türkiyə iqtisadiyyatının geriləməsi, lirə-dollar balansının kəskin pozulması, miqrant böhranı və s. səbəblər Ərdoğanın prestijinə zərbə vursa da, onun qələbə qazanma şansları hələ də çox böyükdür. CHP sədri Kamal Kılıçdaroğlu namizəd olmaq istəyir, lakin İYİ Partiya sədri Meral Akşener bununla razılaşmır. ”Millət İttifaqı” Rəcəb Tayyib Ərdoğanın qarşısına qazanacaq namizəd çıxarmağı planlayır. Kılıçdaroğlu Ərdoğan qarşısında bir dəfə məğlub olub. Bu mənada ”Millət İttifaqı” eyni nəticənin təkrar olmasını arzulamır. Kılıçdaroğlu bunu bildiyi üçün seçkilərin 14 maya təyin edilməsindən öz namizədliyi üçün istifadə edə bilər. ”Millət İttifaqı”nın namizədi kimi seçkilərdə məğlub olarsa, seçkiyə hazırlıq müddətinin kifayət qədər olmamasını əsas gətirər. Yəni Kılıçdaroğlu seçkilərdə məğlub olarsa, ”söz millətin olmadı” deyəcək”.

“Türkiyə iqtisadiyyatının geriləməsi, lirə-dollar balansının kəskin pozulması, miqrant böhranı kimi səbəblər Ərdoğanın prestijinə zərbə vursa da, onun qələbə qazanma şansları hələ də çox böyükdür”

Ekspertin fikrincə, ”Millət İttifaqı”nda hər ağızdan bir səsin çıxması və vahid namizədin hələ də açıqlanmaması seçicilərin müxalifətə inamını azaldır: ”Onsuz da seçki öncəsi keçirilən sorğularda müxalifət namizədlərinə münasibət heç də isti deyil. Bu mənada 14 mayda keçiriləcək prezident və parlament seçkilərində Rəcəb Tayyib Ərdoğan və Milliyətçi Hərəkat Partiyası ilə birgə təşkil olunmuş ”Cümhur İttifaqı”nın şansı yüksək dəyərləndirilir. Böyük fərqlə olmasa da, kiçik nisbətlə qələbə qazanılması mümkündür”.

**T.Rzayev əlavə edib ki, Türkiyə Azərbaycanın strateji tərəfdaşı, hərbi müttəfiqidir:** ”Ölkələr arasındakı münasibətlər tarixin zirvə nöqtəsinə çatıb. Xüsusilə qeyd etmək lazımdır ki, bu münasibətlər Rəcəb Tayyib Ərdoğanın iqtidarı dövründə hazırkı mərhələyə çatıb. Bakı bunları nəzərə alaraq onun qələbəsini daha çox arzulayır. Ancaq bütün hallarda Azərbaycan Türkiyənin daxili işlərinə hörmət edir. Seçkilərin nəticəsindən asılı olmayaraq münasibətlərə xələl gəlməyəcək. Türkiyə üçün də bu, belədir. PKK-nın siyasi qolu sayılan HDP xaric, istənilən partiya Türkiyədə iqtidara gəlsə, iki qardaş ölkənin münasibətlərinə zərər toxunmayacaq”.

**İsmayıl Qocayev**

# Aİ Ermənistanla işləməlidir

## Bir halda ki Ermənistan sülh imzalamaq yerinə silah-sursat alır, o zaman Azərbaycanın bütün iradları və hərəkətləri haqlıdır

**Azərbaycan Avropa İttifaqı (Aİ) Şurasının Ermənistanda Aİ-nin mülki missiyasının yaradılması ilə bağlı qəbul etdiyi qərarı qeydə alır.**



Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Aİ Şurasının Ermənistanda monitorinq missiyasının yaradılması ilə bağlı qərarına dair şərhində bildirilib.

”Belə bir fəaliyyətin sırf ikitərəfli əsasda həyata keçirilməli olan sərhədlərin delimitasiyası prosesi də daxil olmaqla Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə xələl gətirmək məqsədilə sui-istifadə edilməməli olduğuna dair öz qəti mövqeyimizdə qalırıq. Aİ missiyasının Ermənistanda yerləşməsinin müvafiq qaydada Azərbaycanın legitim maraqlarını nəzərə alması, habelə Aİ tərəfindən bu missiyanın fəaliyyətinin qarşılıqlı inam və etimadı sarsıtmayacaq şəkildə həyata keçirilməsi təmin edilməlidir”, - şərhdə qeyd olunub.

Vurğulanıb ki, Azərbaycan tərəfi Aİ missiyasının fəaliyyətə başlaması ilə bağlı müzakirələr prosesində keçmiş təcrübədən irəli gələn lazımi dərslərin çıxarılmasına maksimum diqqət yetiriləcəyini gözləyir:

**Məsələni ”Şərq”ə dəyərləndirən politoloq Tofiq Abbasov qeyd edib ki, bu missiyanın bölgəyə gəlməsi anormal haldır:** ”Çünki Azərbaycan tərəfinin rədd etdiyi bir missiya ya yarımçıq işdir, ya da ermənipərəst mövqedən irəli gələn təşəbbüsdür. Əgər münaqişəli vəziyyət varsa və hansısa qüvvə vasitəçilik etmək istəyirsə, gərək hər iki tərəfin mövqeyini öyrənsinlər. Lakin biz Avropa İttifaqındakı bəzi qüvvələrin, xüsusən də Fransanın Azərbaycana təzyiq göstərməyə çalışdığının şahidi oluruq. Onlar bizə hansısa konfiqurasiyanı sırımaq istəyirlər. Guya bu qüvvələr sülhə meyillidirlər və Cənubi Qafqazda sabitliyin olmasını istəyirlər. Sülh bərqərar olmayıbsa, bu, birbaşa Ermənistanın günahı ucbatındandır. Bunu isə onlar bilməmiş deyillər. Azərbaycan yalnız BMT-nin dörd qətnaməsini öz gücünə yerinə yetirdi və Qafqaza rahatlıq gətirdi. Belə olduğu təqdirdə Aİ Ermənistanla işləməli və onları başa salmalıdır. Bir halda ki Ermənistan sülh imzalamaq yerinə silah-sursat alır, o zaman Azərbaycanın bütün iradları və hərəkətləri haqlıdır. Biz görürük ki, rəsmi Bakı, həqiqətən də, çox sağlam mövqedən çıxış edir”.

*Analitik əlavə edib ki, missiyanın uzadılması Azərbaycanın mövqeyinə mənfi təsir göstərməyəcək:* ”Ona görə ki, bizim dövlət başçısı İlham Əliyev bütün məsələləri zamanında həll edir. Ümumiyyətlə, Azərbaycan tərəfindən həyata keçirilən istənilən tədbirlər zərurətdir. Yəni biz təsadüf heç nə etmirik. Bunu isə onlar da anlamalıdırlar. Əgər onlar Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasını istəyirlərsə, gərək Ermənistana dəstək göstərməsinlər. Əgər ortaq yol istəyirlərsə ya müdaxilə etməlidirlər, ya da Azərbaycanın maraqlarını təmin etməlidirlər. Əks halda bu, qeyri-sağlam yanaşmadır”.

**Nihat Müzəffər**

# Millət vəkili təklif verdi

## Regionlarda, Bakıda parklarda sadə idman qurğuları quraşdırılsın

**”Hər kəsin fitnes zallarına getməyə imkanı yoxdur”. Bu sözləri Milli Məclisin Gənclər və idman komitəsinin iclasında deputat Vüqar İskəndərov deyib. Parlament üzvü bildirib ki, Prezident İlham Əliyev gənclərlə görüşündə bir neçə maraqlı məqama toxunmuşdu. Bunlardan biri də parklarda sadə idman qurğularının quraşdırılmasıyla bağlı idi:**



”Biz komitə olaraq bununla bağlı aidiyyəti qurumlarla müzakirələr aparaq və öz təkliflərimizi verək. Regionlarda da, Bakıda da parkların hamısında sadə idman qurğuları quraşdırılsa, yaxşı olar”.

**Vüqar İskəndərov bəzi idmançılarla bağlı xoşagəlməz hallara da toxunub:** ”Son vaxtlar idmançılar arasında həbslər olur, bu, cəmiyyəti düşündürür. Çox təəssüf ki, belə faktlar var. İdmançıları əsasən torpaqlarımızın müdafiəsi sahəsində görmək istəyirik. Neqativ hallar qınanmalıdır”.

**İsmayıl**

# Zahid Oruc dövlət qurumlarını tənqid edib

## “Qaynar xətt”i olsa da, heç dəstəyi qaldırmaq istəmirlər”



**Milli Məclisin İnsan hüquqları komitəsinin dünənki iclasında komitə sədri Zahid Oruc dövlət qurumlarını tənqid edib. Komitə sədri bildirib ki, qurumların ”qaynar xətt”i var, amma dəstəyi qaldırmaq istəmirlər:**

”Elə qurumlar var ki, ”qaynar xətt”i olsa da, heç dəstəyi qaldırmaq istəmir”. Z.Oruc deyib ki, onlar nəinki şikayətə baxmaq, heç telefona cavab vermək istəmirlər: ”Amma hamısı deyir ”Tvitter”dən, ”Linkedin”dən müraciət edin. Bəs o telefon nə üçündür?”.

**“Bir mənzili 3-4 şəxsə satmasına görə nə qədər adam həbs edilib, vətəndaşa xeyri yoxdur”**

**Millət vəkili Zahid Oruc digər məsələlərdən də danışıb. Bildirib ki, yeni tikinti konsepsiyalarının tətbiqində hamı maraqlıdır. Çünki əmlak məsələlərində problemlər var:** ”Hər hansı tikinti şirkətinin bir mənzili 3-4 şəxsə satmasına görə nə qədər adam həbs edilib. Amma bunun vətəndaşa heç bir xeyri yoxdur, onlar illərlə verdiyi vəsaiti geri qaytarmağa çalışırlar. Qəbul etdiyimiz qanunla tikintinin təməli qoyulan anda alqı-satqı daşınmaz əmlakın dövlət reyestrində qanunıləşdirilməlidir. Amma bunu yada salan yoxdur. Çünki bu, sərf eləmir. Vətəndaşın əmlaka dair hüquqları mövzusunda dinləmə təklifini təqdir edirəm. Sovet dövründə tikilmiş mənzil fondunun böyük hissəsi yenilənsə də, dediyimiz problem də var. 400 mindən artıq rəsmiləşdirilməmiş ev, daşınmaz əmlakdan danışırıq. Bu problemdən ən çox vətəndaş əziyyət çəkir, qeydiyyata düşə bilmir. Qeydə alınmamış ünvanda uşaqlar dünyaya gəlir, əsgərliyə gedir. Bu mənzillərin satışında da problemlər yaşanır. Bu sessiyanın iş planına əmlak problemləri ilə bağlı dinləməni daxil edəcəyik. Bunu Milli Məclisin sədri Sahibə Qafarovayla da danışacam”.

**“19 aydan çox istintaq təcridxanasında saxlanılan vətəndaşlarımız var”**

**Zahid Oruc bildirib ki, 19 aydan çox istintaq təcridxanasında saxlanılan vətəndaşlarımız var. Bu, vətəndaşın hüququnun pozulmasıdır:** Vətəndaş hüquqlarını bilmir. Ona görə də cinayət qanunvericiliyinin mövcud vəziyyəti ilə bağlı dinləmə keçirəcəyik. Məsələn, 19 ay sonra o vətəndaşın günahsızlığı sübut olunsa, deməli, qanunsuz yerə təcridxanada qalıb”.

**İsmayıl**

## Yurda qayıdış



Həmayil Əhmədqızı

# Ləmbəlinin yetim qalan yolları

*(Əvvəli ötən sayımızda)*

**Şər qarışırdı, qara örpəyini yavaş-yavaş kəndin üzərinə sərirdi. Hava qaralmağa başladı. Qaranlığı fürsət bilən dərd, kədər, qəm pusqudan atılan canavar kimi üzərimizə cumub hamımızı caynağına keçirmişdi. Söz bu sükutun ağırlığına dözməyib yoxa çıxmışdı. Hamı bir-birindən küsülü kimi dinib-danışmırdı. Səssizliyi yenə də anamın səsi pozdu:**

- Ay bala, xörək hazırdı, süfrəni qur. Bilirəm, dünəndən bu günə ağızlarına bir tikə almayıblar. Ac qalmaqla işlər düzəlmir. Allah kərimdir, yəqin bir qapı açar.

Atamın təkidi ilə bayırdakılar könülsüz evə keçib süfrə arxasında əyləşdilər, ancaq heç kəs əlini süfrəyə uzatmadı. Atam çox fikirli, pərişan idi. Hər çətinliyə çözüm tapan atam, hiss edirdim, o çözümü tapa bilmir, çünki bu müsibətin çözümü atamlıq deyildi. Ancaq yenə də qonaqlarına ürək-dirək, təskinlik vermək üçün düşünüb-daşınırdı. Nəhayət, çətinliklə də olsa, əhval-ruhiyyəsini düzəldib:

- Hər şərdə bir xeyir var deyiblər. Şər gəldi, etdiyini etdi. İndi hamımız o şərin gizlətdiyi xeyri axtarıb tapmalıyıq. Bu müsibət tək sizin deyil, harada yaşamağından asılı olmayaraq, bütün millətimizin müsibəti, dərdidir. Sadaxlı ilə əlaqə saxladım. Ləmbəlidə bir nəfər də qalmayıb. Sağ olsun Marneulinin rəhbərliyi. Kömək etməsə idi, nələr ola bilərdi?! Ağlıma belə gətirə bilmirəm. Şükür, siz sağ-salamat gəldiniz. Arxanızda qonşu Azərbaycan kəndləri vardı, ermənilər çəkindilər. Bəs dağın başında, gözdən uzaq olanların taleyi necə oldu? Onlar üçün çox narahatam. Cəlaloğlu, Zəngibasar, Hallavar, Pəmbək, Göyçə. Haralar, haralar. Yüz minlərlə həmvətənimizin taleyi necə oldu? Bilirəm, dərdimiz böyükdür. Bu dərdin öhdəsindən ac qalmaqla gəlmək olmaz. "Allah kərimdir",- deyib atam əlini süfrəyə uzatdı. Sonra əllər süfrəyə uzandı, ancaq hiss edirdim ki, əllər süfrəyə yemək üçün yox, könül qırmamaq üçün uzanıb.

Rəhmətlik atam həddindən çox qonaq sevən idi. Evimiz həmişə qonaqlı-qaralı olub. Qonaq gələndə atam sevindiyindən yerə-göyə sığmazdı. Mütləq qonağın ətrafına qonşularımızı, yaxın qohumlarımmızı yığardı. Gözəl məclis qurardı. Məclisi aşıqsız keçməzdi. Qonağını təmtəraqlı qarşılamağından xüsusi zövq alardı. Süfrə dolu olsa da, elə hey deyərdi: "Nə var, gətirin". Atam bugünkü qonaqlarının ətrafına nə qonşularımızı, nə də yaxın qohumlarımızı yığa bilmişdi, çünki onların da bizim kimi öz qonaqları vardı. Hiss edirdim, atam qəfil qarşılaşdığımız müsibətə üzülməklə yanaşı, qonaqlarını layiqincə qarşılayıb yerləşdirə bilmədiyi üçün xəcalət çəkirdi

Gecədən xeyli keçirdi. Heç kəs yatağa uzanmaq istəmirdi. Hələ də olanların həqiqət olduğuna inana bilmirdilər. Dünən gecəni rahatca evində gecələyənlər bu gecə isə harada olduqlarını sanki dərk etmirdilər. Havalı kimi hərlənib nə evə sığışırdılar, nə həyətə. Bibim demək olar ki, səhərə kimi yatmadı. Gecəni Alagözünün yanında keçirdi. Əlacı olsa idi, onu otağa gətirərdi. Alagözünün soyuqdan titrəməsinə dözə bilmirdi. Axırda onun üçün çətin də olsa, qəti qərara gəldi. Oğlunu yanına çağırıb:

- Alagöz mənə göz dağı çəkdirir. Sabah apar bazara, dəyər-dəyməzinə sat. Alan olmasa, kasıbın birinə ver. Heç olmasa, bilərəm ki, isti yeri, yeməyə ot-əncəri olajax.

Oğlu təəccüblə anasının üzünə baxdı. Alagözünü canından artıq istəyən, "xallı inəyim", "yaral inəyim" deyib oxşayan anası bu sözləri doğrudanmı deyirdi? Bibim oğlunun çaşqın-çaşqın ona baxdığını görüb hirsli, hikkəli:

- Üzümə niyə elə baxırsan? Nə deyirəm, onu edərsən!

Bir günün içərisində ağrılarla, acılarla elə yüklənmişdim ki, artıq yük götürməyə taqətim qalmamışdı. Bibimin Alagözündən ayrılma səhnəsini görməmək üçün anamın etirazına baxmayaraq, səhər tezdən evdən çıxdım. Qırmızı körpüyə çatanda gördüklərim məni dəhşətə gətirdi. Körpünün yolu yük, minik maşınları ilə, insan axını ilə bağlanmışdı. Yaşlı bir qadın, əlində dəsmal, yanıqlı səslə sanki kiməsə ağı deyirdi:

**Əzizim, pərən oldu,**
**Dağılıb, pərən oldu.**
**Yurdumuzdan qovdular,**
**Elimiz pərən oldu.**

Ananın fəryadı hamının ürəyini dağlayırdı. Körpüdə rastlaşan qohumlar, dostlar, tanışlar bir-birinə sarılıb gözyaşlarını saxlaya bilmirdi. Yaşlı da ağlayırdı, cavan da. Ayrılarkən, son sözləri bir-birinə bu olurdu: "Hara getsəniz, yerinizi bildirərsiniz". Gördüklərimi hafizəmə yerləşdirə bilmirdim. İnsan mənəviyyatının faciəsi. Yaşadan da insan idi, yaşayan da. İnsanlığın bitdiyi an. Çox dəhşətli an idi. Kənara çəkilmişdim. Hönkür-hönkür ağlamaq istəyirdim. Elə ağlamaq ki, hönkürtümü bütün dünya eşitsin. Eşidib, insan mənəviyyatını bu faciədən qurtarsın. Eşidib qurtaran olacaqmı?!

Köç maşınları, minik maşınları, insan axını yol boyu düzülüb gedir. Maşınlar əşya ilə, insanların ürəkləri dərd, kədər, ağrı, acı ilə yüklənmişdi. Düşünürdüm, yol bu ağırlığa tab gətirə biləcəkmi? Hamı gedirdi, çoxu hara gedəcəyini bilmirdi.

**Əzizinəm, haraya?**
**Bu köç gedir haraya?**
**Hardan gəlir, bilirəm,**
**Gedəcəkdi haraya?**

Yol uzun, beynimi didib parçalayan suallar çox, cavabı isə məndə yox. Başımıza açılan zəncirvari müsibətə, faciəyə vəsilə olan Sumqayıt hadisəsi niyə tilsimə düşdü? Açılmadı? Əsl cinayətkarlar tapılmadı? Qonşu respublikalardan fərqli olaraq beynəlmiləlçilərin önündə gedən biz necə oldu, birdən-birə millətçi olduq? Bakının milli tərkibi dediklərimizə əyani sübut deyilmi? Niyə bizim millətin xarakterinə yad, əsla uyuşmayan xüsusiyyəti yarlıq kimi üzərimizə yapışdırmaq istəyirlər?



Axı biz həmişə özümüzdən çox yadlara qucaq açmışıq. Sevgimizi, istəyimizi onlara yönəltmişik. Azərbaycanın dilbər guşəsi olan Qarabağda yadları yerləşdirmişik. Səfalı dağlardan, dədə-baba yurdlarından qovulan, didərgin salınan soydaşlarımızı ilan mələyən, susuz, şoran düzlərə səpələmişik. Bu sevgimizin sayəsində dəyişik iqlimə uyğunlaşa bilməyənlər vətən həsrətinə, haqsızlığıa, ədalətsizliyə dözməyənlər dünyasını dəyişdi. Doğma dilimizi künc-bucağa sıxışdırıb, yad dillərə geniş meydan verdik, onunla da fəxr etdik. Dili bir, kökü bir, dini bir qardaşlarımızla aramıza keçilməz qala divarları hördülər, sədlər çəkdilər. Qardaşı düşmən, düşməni bizə qardaş kimi təqdim etdilər. Bu "qardaşlığın" nəticəsində 114 min kvadrat kilometr vətən torpağımızdan 86.6 min kvadrat kilometr torpağımız qaldı. Əlimizdən alınan torpaqlarımızdan dövləti olmayan, dövlət anlayışı nədir bilməyən, cəlayivətən həyat sürən, günü harada xoş keçib, oranı özünə vətən bilən düşmənlərimizə qondarma dövlət düzəltdilər. Bu günə kimi torpaqlarımızı istədikcə aldılar, aldıqca istədilər. Bir-biri ilə sıx bağlı olan sözü əməldən ayıraraq uşaq aldadan kimi söz bizə, sözün arxasındakı əməl düşmənə verildi. Bu, yüz il əvvəl də belə olub, bu gün də belədir. Heç təsadüfi deyil ki, XX əsrin əvvəllərində Nəriman Nərimanov ona söz verən, ancaq sözünə əməl etməyən, sözünün üstündə durmayan Leninə yazdığı məktublarında dönə-dönə təkrarlayırdı: "Vladimir İliç, axı siz söz vermişdiniz..." Çox təəssüf ki, sələflərinin söz verib, sonra sözünə sahib çıxmayanların xələfləri bu gün o ənənəni davam etdirirlər. Günlər, aylar keçir. Gördüklərimi - ürəyimi ağrıdan, acıdan, insan mənəviyyatını məhv edən müsibətləri qələmə almaq istəyirdim, ancaq hiss edirdim, olanları yazmağa nə mənim, nə də qələmimim gücü yetir. Yazmaq istəsəm də, yaza bilmirdim, çünki yazının hər cümləsində baş qaldıran suallara cavab verə bilməyəcəyəm. Zaman su kimi axıb gedir, daxilimdə bir qüvvə məni kəndə dartırdı. Tez-tez getdiyim kəndə xeyli müddətdir, getmirdim, getmək də istəmirdim. İçimdə bir qorxu, bir narahatlıq hissi var idi. Ancaq istəməsəm də, daxilimdən bir güc məni kəndə dartırdı.

Yazda elimiz-obamız insanı sehirləyən, məftun edən bir gözəlliyə bürünürdü. Sinəsi kəklikotulu, quzqulaqlı, qulançarlı, bənövşəli, dərələri yarpızlı, moşlu, moruqlu, nərgizli Babakər dağının cah-cəlallı vaxtı idi. Birdən o gözəlliyi görmək üçün ürəyim tir-tir əsməyə başladı, dayana bilmədim. Tələsik hazırlaşıb yola düşdüm, ancaq içimdəki narahatlıq məni için-için yeyirdi. Nələrlə qarşılaşacağımı bilmirdim. Kəndə çatanda hər şeyin qaydasında olduğunu görüb həm sevindim, həm kədərləndim. Sevindim, kənd əvvəlki halına dönmüşdü. Kədərləndim, Gürcüstan hökumətinin qərarına görə, Ermənistan köçkünləri nə həmişəlik, nə də uzunmüddətli Gürcüstan ərazisində qala bilmədiklərinə görə ləmbəlilər pərən-pərən olub, doğmalar, qohumlar, dostlar, hərəsi Azərbaycanın müxtəlif bölgələrinə səpələnib dağılmışdı. Kəndin əsas yolundan çıxıb ara yolu ilə təpəni (evimiz təpənin üstndə idi) qalxmağa başladım. Qalxdıqca varlığımı qəribə bir hiss bürüyürdü. Bu hiss keçən gəlişimdə gördüklərimi hafizəmdən silib atmağa çalışırdı. Hər yandan uşaqlıq, gənclik xatirələrim baş qaldırıb mənə boylanırdı. Bilmirdim hansına üz tutum. Birdən dayandım. Dayandığım yer anamın ocaq yeri idi.

Anam yuxa salırdı, mən də ona kömək edirdim. Birdən uşaqların dərədə yığışıb bənövşə oyunu oynadığını gördüm. Gizlincə təpəni (həmişə təpəni atlana-atlana düşərdim) atlana-atlana düşüb onlara qoşulmaq istərkən necə yıxıldımsa, üz-gözüm al-qana boyandı. Anam məni o halda görüb, üstündən də bir oxlov ilişdirib:

**- Aldın payını, haydi, indi get oyna. Nə qədər demək olar? Təpəni atlana-atlana düşmə. Allah sənə yerimək üçün iki ayaq verib, atlanmaq üçün yox.**

Anam deyinir, mən ağlayırdım. Birdən ürəyimdən təpəni atlana-atlana düşmək keçdi, ancaq dayandım. Acı-acı güldüm. Yıxılsam, oxlovu kim ilişdirib məni danlayacaq? Ocaq yerinə baxdım, nə ocaq daşları vardı, nə anamın sacı, nə də anam. Həyətdə sağa-sola boylandım. Kimi isə axtarırdım. Kimi? Kimsə gözümə dəymədi. Çantamı həyətdə iydə ağacının altındakı taxtın üstünə qoyub eyvana qalxdım. Eyvandan Babakər dağı ovuc içi kimi görünürdü. Babakərə baxdım. Nə gözlərimə inandım, nə gördüklərimə. Yerimdəcə donub qaldım. Babakəri sinəsindən şaqqalayıb ikiyə parçalamışdılar. Başının tacı Dikdaş yerlə-yeksan olmuşdu. Kəndi qucaqlayan qolları sındırılıb yanına salınmışdı. Varlığıma dəhşətli bir ağrı doldu. Babakəri də böldülər, Babakəri də parçaladılar. Niyə həmişə bölünən, parçalanan biz oluruq? Azərbaycanı böldülər, Borçalını parçaladılar, Borçalının başının tacı Babakəri də beləcə şaqqaladılar. Arxamızın dağı - Babakərin sinəsini dağlaya-dağlaya yol çəkdilər. Bağlı qapılar arxasında çəkilən sərhədlər, xəritələr yetmiş il gizli saxlanıb bu gün üzə çıxarıldı. Bu sərhəd Baqrataşendən on kilometrlərlə uzaq olsa da, bizim kəndin burnunun dibindən çəkilib. Evi sərhədin bu üzündə, bağı-bağçası o üzündə qalanlar oldu. Gördüyüm o qədər ağrılı-acılı idi, varlığımı alt-üst etmişdi. Babakər mənim uşaqlıq, gənclik xatirələrimin qucağı idi. Babakəri parçalayıb xatirələrimi yerlə-yeksan etmişdilər. Sinəsinə çalın-çarpaz dağlar çəkilən Babakərə artıq baxa bilmirdim. Sürünə-sürünə eyvandan həyətə endim. Artıq kənddə qalmaq istəmirdim. Ailəmiz razı olmasa da, səhər tezdən geri dönəcəyimi bilmirdim. Gecə yatağıma uzandım, amma yata bilmirdim. Babakərin sinəsinə çəkilən dağlar indi də mənim sinəmə çəkilirdi. Ürəyimə sızıltılı bir ağrı dolmuşdu. Mənə elə gəlirdi ki, bu ağrı məni heç zaman tərk etməyəcək. Gecə gecədən keçirdi, yuxum ərşə çəkilmişdi. Birdən açıq pəncərənin şüşəsindən əks olunan alovun şölələndiyini gördüm. Mənə elə gəldi ki, evdə yanğın baş verib. "Yanğın" deyə var gücümlə qışqırdım, ancaq məlum oldu ki, yanğın evdə deyil, Babakərin sinəsində alovlanır. Babakər alova bürünmüşdü. Gecənin yarısı bütün kənd böyüklü-kiçikli ayaqda idi. Babakər cayır-cayır yanır, yana-yana bizdən imdad diləyirdi, ancaq heç kəs kömək edə bilmirdi. Kömək edə biləcək olanlar kömək etmədi, çünki Babakər bizim arxamızın dağı idi. Biz onun gözəlliyini seyr edirdik. Bizim mal-qaranın örüş yeri idi. Kənd Babakərin yanğınının qoruna, tüstüsünə bürünmüşdü. Nəfəs almaq mümkün deyildi. Bu qor, bu tüstü on kilometrlərlə uzaq olan Baqrataşeni deyil, bizim kəndi bürümüşdü. Babakərin sinəsi yanıb külə döndü. Babakər bizim sevinc qaynağımız idi. Hər baxanda ilham aldığımız o gözəllikdən əsər-əlamət qalmamışdı. Həmişə sevincli, şad günlərimizi Babakərin Zoğallı, Çırçırlı bulağının başında keçirər, sevincimizi onunla bölüşərdik. Çətin, ağır günlərimizdə ona üz tutardıq. Ondan güc alıb dözümlü, səbirli olmağı öyrənərdik. İndi heç kəs xəcalətindən Babakərə baxa bilmirdi. Onu qoruya bilmədiyi üçün, sinəsinə dağ çəkib dağlandığı üçün, yazın bu gözəl çağında yaşıl donunu soyundurub, qara libas geyindirildiyi üçün. Kənd camaatı çaşqın-çaşqın, hüzünlü baxışlarla bir-birinin üzünə baxıb eyni sualı verirdi:

- Gecə yarısı Babakərə kim qıyardı?

Cavab hamıya bəlli olduğu kimi mənə də bəlli idi. Amma mənim fərqli düşüncələrim də vardı. Uzun illər başımıza açılan oyunları, müsibətləri görən, içində korun-korun yanan Babakər axırda dözmədi, alışdı, yandı, alova büründü. Atalarımızın bir hikmətli sözünü xatırlayıram: "Bu dərdə dağ dözməzdi, biz dözdük". Doğrudan da, bu dərdə Babakər dözmədi. Biz dözdük, dözürük, nə vaxta qədər, bilmirəm. Son illər kəndə hər gəlişimdə ağrılı-acılı sürprizlərlə qarşılaşdığım üçün olanlardan özümü bir növ günahkar sayırdım. Peşman-peşman geri dönürdüm. Rəfiqələrimə söz vermişdim, Babakərin ətri və gözəlliyi ilə heç bir diyarda bənzəri olmayan bənövşəsindən, nərgizindən dəstə tutub gətirəcəyimə. Ancaq çox təəssüf ki, əlimdə Babakərin güllərini deyil, ürəyimdə yanıb külə dönmüş o gözəl güllərin külünü aparırdım. Yol boyu məni bir sual hey düşündürüb narahat edirdi. Niyə bizim birliyimiz, bütövlüyümüz, nəinki yan-yörəmizdəki düşmənlərimizi, bədxahları, dünyanın ən güclü dövlətlərini belə narahat edir? Axı biz dünyanın bu ucundan okeanı üzə-üzə keçib o biri ucunda qırmızı dərililərin axırına çıxmamışıq?! Vaxtilə dünyanın mədəniyyət, inkişaf mərkəzi olan qoca şərqi - ərəb dünyasını soyub, talayıb sonra tar-mar etməmişik! Ayaq basdığımız ölkələri xarabalığa çevirib yerində münaqişə, müharibə ocağı qalamamışıq! İnsanları ata-baba yurdundan heç bir səbəbi olmadan dönə-dönə kökündən qoparıb didərgin salmamışıq! Azərbaycan heç bir dövlətə ərazi iddiasında olmayıb, heç bir dövlətin torpağını işğal edib milyonlarla insanı yurd-yuvasından didərgin salmayıb. Azərbaycan dövlətinin varlığı nədən başqaları üçün təhlükə yaratsın? Burada deyiblər, adımı sənə qoyub səni yana-yana qoyacam. Bu gün din pərdəsi altında mənfur niyyətlərini həyata keçirmək üçün dini alət edənlərin sərsəm bəyanatları, çirkin fəaliyyətləri dinimizin məqsəd və məramına tamamilə zidd və yaddır. Dinimiz qardaşlıq, birlik, haqq-ədalət, insanlıq dini olan islam dinidir. Məqsədi parçalamaq, bölmək, ayırmaq-düşmənçilik deyil. Bu gün üzdə özünü xeyirxah niyyətli göstərib, əslində, çirkin məqsədlərini həyata keçirmək üçün içimizə soxulub içimizi qurd kimi yeyənlər, sabah başımıza açacaqları müsibətlərin, faciələrin bünövrəsini qoymağa çalışırlar. İnşallah, Azərbaycan dövləti onların bəd niyyətlərini həmişəlik gözündə və ürəyində qoyar. Bizim köməyimiz Allahdan, gücümüz birlikdədir. Heç bir mənfur düşmən bu gücümüzü əlimizdən ala bilməz!

# "Ümid edirik ki, AXP qeydiyyatdan keçəcək"

## Əhəd Məmmədli: "Pənah Hüseyn ölkə siyasətinin episentrində olan, tanınmış, nüfuzlu siyasətçidir"



**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin partiyası dövlət qeydiyyatına alınmır. O, bu iddia ilə özünün feysbuk hesabında çıxış edib. Partiya rəhbəri bildirib ki, ötən ilin dekabrın 11-də keçirilmiş Azərbaycan Xalq Partiyasının V qurultayının nəticələrinin Ədliyyə Nazirliyində hüquqi fakt kimi qeydə alınması süni şəkildə uzadılır:**

"27.12.2022-ci il tarixdə yazılı şəkildə iki texniki çatışmazlıq əsas göstərildi. Bunlar düzəldilərək yenidən təqdimatdan sonra 05.01.2023 tarixində bu dəfə titul səhifəsində vəzifəli şəxsin düzgün göstərilməməsi və Nizamnamədə sıralamada uyğunsuzluq qeyd olunaraq imtina edildi". P.Hüseyn iddia edib ki, son çatışmazlıqlar düzəldiləndən sonra siyasi partiyalar haqqında yeni qanuna istinad olunaraq tamamilə qanunsuz tələb irəli sürüldü. Tələbin yazılı şəkildə təqdim olunmasını gözləyirəm və alandan sonra nədən qanunsuz olduğunu göstərəcəm". Məlumat üçün bildirək ki, "Siyasi partiyalar haqqında" yeni qanuna görə, dövlət qeydiyyatı üçün partiyanın azı 5000 üzvü olmalıdır. Siyasi partiyalar 180 gün müddətində üzvlərinin sayını 5000 min nəfərə çatdırmalı, reyestrini hazırlayıb Ədliyyə Nazirliyinə təqdim etməlidir. Üzv sayı 4500-dən aşağı düşdükdə qurum məhkəmə qərarı əsasında ləğv edilə bilər. Əvvəlki qanunda partiyanın qeydiyyatı üçün 1000 üzv kifayət edirdi.

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə vurğulayıb ki, "Siyasi partiyalar haqqında" qanun layihəsinin müzakirəsi zamanı müəyyən dəyişikliklər olsa da, ümumən qaneedici olmadı. Ancaq buna rəğmən, qanun qəbul edildi:** "Yeni qanuna uyğun olaraq partiyalarda, o cümlədən AĞ Partiyada prosesə başlanılacaq. Əslində mövcud reallıqda çox az sayda partiya qanunla tələb olunan 5000 üzv şərtini icra etmək imkanındadır. AĞ Partiya da bu az sayda olan qurumlar arasındadır. Ümid edirik, "Siyasi partiyalar haqqında" yeni qanun ümumilikdə Azərbaycanda siyasi partiyaların sağlam rəqabətinə təkan verəcək. Bəhanəsiz, problemsiz partiya adını daşıyan siyasi qurumların yolunu açacaq. Hesab edirik ki, belə partiyalardan da biri Pənah Hüseynin rəhbərlik etdiyi Azərbaycan Xalq Partiyasıdır. Nəzərə alaq ki, ölkəmizdə tanınmayan, fəaliyyətsiz partiyalar çoxdur. Bu yaxınlarda siyasi təşkilatların siyahısı açıqlananda ilk dəfə gördüyüm partiyalar var idi. Siyahıya baxanda gördüm ki, Azərbaycanda filan adda partiya var. Partiya sədrləri ilə bağlı vəziyyət eynidir. Dünyasını dəyişmiş, yaxud həbsdə olan partiya sədrləri var. Əgər hansısa siyasi qurumların ləğvindən söhbət gedirsə, ilk növbədə reallıqda olmayan partiyalar ləğv olunmalıdır. Azəbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn ölkə siyasətinin episentrində olan, tanınmış, nüfuzlu siyasətçidir. Partiyası da aktiv fəaliyyət göstərən siyasi təşkilatlardandır. O baxımdan ümid edirik ki, qısa müddətdə Azərbaycan Xalq Partiyası Ədliyyə Nazirliyində qeydiyyatdan keçəcək".

**İsmayıl Qocayev**

# Yenə təxribat, yenə Rusiya kanalı

## Azərbaycan Xarici İşlər Nazirliyi Kremlə rəsmi nota verməlidir




***"Araik Stepanyan üçün Azərbaycan mövzusu çox ağrılıdır. Çünki separatçı qardaşını məhv edən Azərbaycan Ordusudur"***

**Rusiya televiziyasında Azərbaycana qarşı yenə təxribat törədilib. Azərbaycan əleyhinə təxribat bu dəfə "Rossiya 1" telekanalının efirində canlı yayımlanan "Kto protiv" siyasi tokşousunda baş verib. Siyasi ekspert Dmitri Kulikovun aparıcısı olduğu proqramın 24 yanvar tarixli efirində erməni əsilli "ekspert" Araik Stepanyan Azərbaycan əleyhinə təxribatçı ifadələrə yol verib.**

O, guya Azərbaycanın Birinci və İkinci Qarabağ müharibələrində ölkədə yaşayan azsaylı xalqların nümayəndələrini qəsdən ön cəbhəyə göndərdiyini və onlardan xilas olmaq istədiyini iddia edib. Özünü "Geosiyasi Problemlər Akademiyasının prezidenti" kimi təqdim edən "ekspert"in Azərbaycan əleyhinə təxribatçı fikirlərinə digər spikerlərdən reaksiya gəlməyib. Proqramda müzakirə mövzusu Türkiyə-NATO münasibətləri və Ukraynadakı müharibə olsa da, Stepanyan Azərbaycan əleyhinə fikirlər səsləndirməyi unutmayıb. Qeyd edək ki, Rusiyanın dövlət tərəfindən maliyyələşən televiziya kanallarında, kütləvi informasiya vasitələrində Azərbaycan əleyhinə təxribatlar mütəmadi baş verir. Bu təxribatlar İkinci Qarabağ müharibəsi zamanı, ondan əvvəl və sonra da müşahidə olunub.

**Tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov "Şərq"ə deyib ki, Rusiya sovet dönəmindən etibarən separatist rejimlərin yuvasına çevrilib, onları himayə edib. Ekspert vurğulayıb ki, söhbət təkcə Qarabağdakı separatçılardan yox, eləcə də Abxaziya, Osetiya və digər bölgələrin separatçılarının məhz Rusiyada cəmləşməsindən gedir:** "Rusiya separatçılara heç vaxt müdaxilə etməyib. Hətta ötən illərdə Moskvada separatçıların toplantısı keçirildi və dünyanın müxtəlif ölkələrinin təmsilçiləri ora dəvət edildi. Terrorçuluq fəaliyyəti həyata keçirən qrupların nümayəndələrini də orada gördük. Bu, Rusiyanın xarici siyasətinin tərkib hissəsidir. Aparıcı Dmitri Kulikov Rusiyanın propoqanda alətidir. Araik Stepanyan isə Kulikovdan daha irəlidə dayanır. Keçmişini araşdırsaq, görərik ki, Azərbaycana qarşı daim mübarizə aparıb, qardaşı müharibədə öldürülüb. Bir müddət sonra Moskvaya gedərək "politoloq" kimi müxtəlif televiziya verilişlərinə qatılmağa başlayıb. Araik Stepanyan üçün Azərbaycan mövzusu çox ağrılıdır. Çünki separatçı qardaşını məhv edən Azərbaycan Ordusudur. O baxımdan ölkəmizə qarşı çıxışları təəccüb doğurmur".

*F.Abbasov hesab edir ki, Rusiya hökuməti bu tipli təxribatların qarşısını ala bilər və almalıdır:* "Azərbaycan və Rusiya arasında 22 fevral 2022-ci ildə imzalanmış müqaviləyə görə, ölkəmizin torpaq bütünlüyünə qarşı çıxan qruplaşmalar, təxribatçılar dərhal cəzalandırılmalıdır. Kulikov və Stepanyan kimi insanlar da Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qəsd edənlərin arasındadır. Bununla bağlı Xarici İşlər Nazirliyimiz Rusiyaya rəsmi nota verməlidir. Müəyyən addımlarla bu cür təxribatların qarşısını ala bilərik".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi





# Beynəlxalq qurumlar işə başlamalıdır

## Ermənistanın törətdiyi ekoloji cinayətlər təkcə Azərbaycana deyil, ümumilikdə regiona faciələr gətirib

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Səbinə Əliyeva Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə və ekoloji cinayətlərlə bağlı beynəlxalq insan hüquqları təşkilatlarına növbəti dəfə müraciət edib. Müraciətdə Ermənistanın işğalçılıq siyasətinin hansı faciələrə səbəb olduğu vurğalınır, həmçinin 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərdə ekoloji terror törətdiyi qeyd edilir. "Ermənistanın işğalı dövründə Azərbaycan ərazilərində olan təbii sərvətlər talan edilmiş, qızıl, civə, mis, qurğuşun, sink, kömür və s. daxil olmaqla 163 faydalı qazıntı yatağı, həmçinin meşə örtüyü, nadir ağaclar qanunsuz şəkildə istismar olunub.**

Transsərhəd çay olan Oxçuçayın uzun illərdir ki, Ermənistan ərazisində kəskin çirklənməyə məruz qalması Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayındakı su ehtiyatlarının keyfiyyətinə də mənfi təsir göstərir ki, bu da həyat və sağlamlıq üçün son dərəcə təhlükəli nəticələr verir. Bütövlükdə götürdükdə bəşəriyyətin təhlükəsizliyinə qəsd edən əməllərindən hələ də əl çəkməyən Ermənistan ölkəmizin təbiətinə, bioloji müxtəlifliyinə, flora və faunasına, su mənbələrinə, ümumilikdə regionun ekosisteminə ciddi zərər vurmaqda davam edir", ifadələri yer alan müraciətdə Ermənistan Respublikası ərazisindəki "Metsamor" Atom Elektrik Stansiyasının bölgəyə vurduğu ekoloji zərərə də diqqət yönəldilib. Ombudsman müraciətində qeyd edir ki, Ermənistanda texniki və mənəvi cəhətdən köhnəlmiş "Metsamor" Atom Elektrik Stansiyasının bu gün də fəaliyyət göstərməsi yalnız Azərbaycan və Ermənistan üçün deyil, həm də bütün bölgə üçün ciddi təhlükə mənbəyidir. Bu isə o deməkdir ki, regionun hər bir ölkəsi Çernobıl və Yaponiyanın Fukuşima AES-nin aqibətini yaşamaq təhlükəsi ilə üz-üzədirlər. Müxtəlif beynəlxalq təşkilatların və atom sahəsi üzrə mütəxəssislərin artıq istismar müddəti bitmiş "Metsamor" AES-i "bütün bölgə üçün təhlükə" adlandıraraq xəbərdarlıq etmələrinə baxmayaraq, Ermənistan nəinki stansiyanın fəaliyyətini dayandırmır, əksinə, onun fəaliyyəti 2026-cı ilə və ondan sonrakı müddətə uzadılıb. Yeri gəlmişkən, Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsinin Ermənistan üzrə tərəfdaşlığın implementasiyası haqqında 2022-ci il 17 may tarixli hesabatında da qeyd edilib ki, "Metsamor" AES nüvə təhlükəsizliyi üzrə beynəlxalq səviyyədə qəbul edilmiş standartlara tam cavab verəcək formada təkmilləşdirilə bilməz və buna görə də onun bağlanması və təhlükəsiz şəkildə istismardan çıxarılması tələb olunur. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili olaraq, beynəlxalq təşkilatlara, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına ünvanladığımız hesabat, bəyanat və müraciətlərdə Ermənistanın törətdiyi müharibə və terror cinayətləri, o cümlədən mina problemi ilə bağlı faktlar əsasında məlumat verilməsinə, işarələnməmiş minaların dəqiq xəritələrinin ölkəmizə təhvil verilməsinin əsaslandırılmasına baxmayaraq, qarşı tərəf bu məsələyə hər hansı bir reaksiya verməyib. Əksinə, beynəlxalq humanitar hüquqa tamamilə zidd olaraq, Ermənistan hələ də müxətlif diversiya qrupları vasitəsilə torpaqlarımızı minalarla çirkləndirməklə, ətraf mühitə qlobal təhlükə yaratmaqla mina terroru və ekosid cinayətlərini davam etdirir. Ombudsman müraciətində Laçın-Xankəndi yolunda Azərbaycan ekofəallarının artıq 45 gündür davam edən dinc etiraz aksiyasının daşıdığı məqsədə də toxunaraq bildirib ki, Azərbaycan ərazilərində Ermənistan tərəfindən təbii sərvətlərin qanunsuz istismarı və talan edilməsi nəticəsində ətraf mühitə ciddi şəkildə zərər vurulur. Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden faydalı qazıntı yataqlarının qanunsuz istismarı nəticəsində baş verən ciddi ekoloji fəsadlar bunu bir daha sübut edir. Təəssüf ki, beynəlxalq qurumlar hələ də bu məsələdə susur.

**Ombudsmanın insan hüquqları üzrə beynəlxalq təşkilatlara ünvanladığı növbəti müraciət barədə "Şərq"ə danışan Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev qeyd etdi ki, Ermənistanın törətdiyi hərbi və ekoloji cinayətlər təkcə Azərbaycana deyil, ümumilikdə regiona faciələr gətirib:**

- Müraciətdə Ermənistanın cinayətləri ətraflı işıqlandırılıb, o cümlədən də törətdiyi ekoloji terror. Müsbət haldır ki, ombudsmanın müraciətində hazırda Laçın-Xankəndi yolunda davam edən ekoaksiya barədə də geniş məlumat verilir. Bu, həm də Ermənistan ombudsmanına tutarlı cavabdır. Ermənistan ombudsmanı bu günlərdə yayımladığı açıqlamada əsassız iddialarla çıxış edib, ekofəalların dinc aksiyasını az qala bölgədə "humanitar fəlakət" kimi qələmə verməyə cəhd edib. Halbuki Ermənistan 30 ilə yaxın müddətdə bölgədə bəşəri cinayətlərə imza atıb. Ekoloji terror da bəşəri cinayətdir. Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının nümayəndələri və ətraf mühitin mühafizəsinə önəm verən ictimai fəallar tərəfindən Laçın-Xankəndi yolunda davam etdirilən dinc aksiya məhz Ermənistan tərəfindən ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarı, talan edilməsi və nəticə etibarilə həmin fəaliyyətlərin səbəb olduğu ətraf mühitin ciddi şəkildə çirkləndirilməsinin qarşısını almaq məqsədi daşıyır. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının 1999-cu il 9 noyabr tarixli qanununa əsasən, "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" 1998-ci il 25 iyun tarixli BMT Konvensiyasını ratifikasiya edib. Bu aksiya da ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, o cümlədən bu Konvensiyanın tələblərinə uyğun şəkildə keçirilir. Ombudsmanın müraciətində Azərbaycanın hüquqlarının təmini beynəlxalq sənədlərlə əsaslandırılıb. 2006-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı Qətnamədə işğal altında olan Azərbaycan torpaqlarında törədilmiş yanğınların regionun ekoloji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi məsələsi qaldırılıb, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunub. Ermənistan Respublikası tərəfdar çıxdığı "Ətraf mühitə istənilən hərbi və ya düşməncəsinə təsir vasitələrindən istifadənin qadağan edilməsi haqqında", "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında" və qoşulduğu digər beynəlxalq konvensiyaları ratifikasiya etməkdən yayınır. Azərbaycan isə beynəlxalq hüquqa əsaslanaraq Ermənistanı uzun illər ərzində törətdiyi müharibə cinayətlərini və ekoloji terroru dayandırmağa çağırır və beynəlxaql təşkilatları da vasitəçi olaraq görür. Ermənistan transsərhəd çay olan Oxçuçayın zəhərli maddələrlə çirkləndirilməsinə, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden faydalı qazıntı yataqlarının qanunsuz istismarına son qoymalı, Azərbaycanın müvafiq dövlət orqanlarına ekoloji və digər fəsadlarla bağlı həmin yataqlarda monitorinq aparmasına şərait yaradılmalıdır. Bu müraciət BMT-nin Baş Katibi, BMT-nin Təhlükəsizlik Şurası, ATƏT, Avropa İttifaqı da daxil bir sıra beynəlxalq təşkilatlara göndərilib. Hesab edirəm ki, bu, Azərbaycanın haqlı tələbidir və beynəlxalq qurumlar regionbda ekoloji terrora son qoyulması üçün nəhayət, konkret işə başlamalıdırlar.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Köhnələrə pul xərcləməyə dəyməz

## Müasir üslubda yeni tələbə yataqxanaları tikilməlidir



**"Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbə yataqxanasını bərpa etməyə vəsaiti yoxdur". "Report" xəbər verir ki, bunu AzMİU-nun rektoru Gülçöhrə Məmmədova deyib. Rektor bildirib ki, yataqxana məsələsi problemdir: "Universitetin yataqxanasında indiyə qədər məcburi köçkünlər yaşayıb. İndi onlar orada yaşamasalar da, hazırda bizim tələbə yataqxanasını təmir etməyə imkanımız yoxdur". G.Məmmədova əlavə edib ki, hazırda yataqxanaların əsaslı təmir olunması və tələbələrin istifadəsinə verilməsi üçün Elm və Təhsil Nazirliyi ilə birlikdə çıxış yolları axtarılır.**

Bir zamanlar tələbələrə məxsus olan yataqxanalarda mənfur qonşumuzun işğal siyasəti nəticəsində məcburi köçkünlərin məskən saldığı məlumdur. 30 ilə yaxın müddətdə bu yataqxanalar yeni sakinlər tərəfindən istifadə edildi, təmir işləri aparılmadığından illər keçdikcə istismara yararsız hala düşdü. Hazırda paytaxtda yararsız vəziyyətdə, hətta insan həyatı üçün real təhlükə daşıyan yataqxanalar demək olar "tükdən asılı" haldadır, bir təkana bənddi ki, uçulub-tökülsün. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işləri aparılır. Erməni təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşənlərin qısa zamanda doğma torpaqlara qayıdışı üçün dövlət proqramı icra edilir. Lakin keçmiş məcburi köçkünlərin bütünlüklə yurda qayıdışının nə zaman reallaşacağı və yataqxanaların da tamamilə boşaldılacağı barədə konkret müddət söyləmək mümkün deyil. Bundan əlavə, qələbə qazandığımız Vətən müharibəsindən əvvəl məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış kompleksləri tikilib istifadəyə verilirdi, məcburi köçkünlər yeni mənzillərlə təmin edilirdi. Yəni boşaldılan yataqxanalar da vardı, lakin təəssüf ki, onlar öz əvvəlki funksiyalarına qaytarılmırdı. Tələbə yataqxanası problemi hələ də çözülməmiş qalmaqdadı və bu vəziyyət tələbələri sosial-maddi sıxıntılara məruz qoyur. Regionlardan paytaxta ali təhsil almağa gələn gənclər məcburiyyət qarşısında mənzil kirayələməli olur. Paytaxtda isə kirayə haqqı məlum məsələdir ki, bahadır. Tələbələr də 2-3, bəzən 4 nəfər birləşib mənzil tutur, kirayə haqqını bölüşərək ödəyirlər. Problemdən çıxış yolu varmı?

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd etdi ki, hər bir ali təhsil müəssisəsinin yataqxanası olmalıdır:**

- Bu, əsas şərtlərdən biridir. Yataqxana yoxdursa, tələbə məcbur qalıb mənzil kirayələyir. Bu da tələbəni maddi sıxıntıya salır. Yataqxanalarsa tələbələrin birgə yaşayışı, təhsil mühitindən kənarlaşmaması, sosiallaşması, dostlaşması üçün əsl münbit şərait deməkdir. Hazırda hansı ali məktəbin yataqxanası var? Bakı Ali Neft Məktəbidir, müasir tələblərə cavab verən kampusu, 400 yerlik yataqxanası var. Ən qocaman ali məktəb olan Bakı Dövlət Universiteti bir yataqxananı təmir edib, Tələbə Evi kimi fəaliyyət göstərir. Tibb Universitetinin də yataqxanası var. Digər ali məktəblərinsə, yataqxanaları yoxdur, niyə yoxdur, bu da məlumdur. Nə etmək olar ki, yataqxanalar mövcud olsun, tələbələrin də yükü azalsın? İlk növbədə hansı yataqxananın istismara yararlı olduğu müəyyənləşməlidir. Ola bilər elə yataqxana binası var ki, nisbətən kiçikölçülü təmirə ehtiyac duyulur. Belə yataqxanaları müəyyən miqdarda vəsait hesabına təmir edib, tələbələrin istifadəsinə vermək olar. Tələbələr yataqxanalarda az miqdarda ödəniş müqabilində qala bilər. Bu ödənişlərsə, yenə də yataqxananın təmirinə istifadə edilər. Digər daha əsaslı və gələcəyə hesablanmış variant yeni yataqxanaların tikintisi ilə bağlı Elm və Təhsil Nazirliyinin Nazirlər Kabineti qarşısında məsələ qaldırmasıdır. Bunun üçün dövlət büdcəsindən vəsait ayrılmalıdır. Ali məktəblərin gəlir mənbələri varsa, təbii ki, var, məsələn, ödənişli təhsildən əldə edilən gəlir, bu gəlirdən də yataqxana tikintisi və ya yataqxanaların təmiri üçün istifadə edilə bilər. Bütün vasitələr, yollar nəzərdən keçirilməli və ən uyğun variantlar seçilərək bu problem həllini tapmalıdır. Dünya üzrə ali təhsil müəssisələrinin reytinqi həm də malik olduqları tələbə kampuslarına görə təyin edilir. Tələbələr üçün hansı şərait yaradılıb, onların normal təhsil almaları və istirahətləri, gündəlik məişət ehtiyaclarını normal qarşılayacaq şəraitləri varmı, bu məsələlərə də baxılır.

*E.Əfəndi tələbələr üçün yeni yataqxanaların şəhər mərkəzindən kənarda tikilməsini məsləhət gördü:*

- Şəhərdə onsuz da sıxlıqdır. "Elmlər Akademiyası"nın əhatə dairəsində görün, neçə ali məktəb var. Onların hamısının tələbə yataqxanaları eyni ərazidə tikilsə, təsəvvür edin, necə sıxlıq yaranacaq. Məncə, yataqxanaların şəhər kənarında tikilməsi tələbələrə elə də böyük çətinlik yaratmayacaq. Zatən uzaq məsafələrdən dərsə gələn tələbələr var. Xırdalan, Masazır, Sulutəpə, Sumqayıt... Yataqxanalar mərkəzdən kənarda inşa edilsə, həm ərazi sahəsi baxımından genişlik əldə edilər, bütün lazımi infrastruktur təmin edilər, həm də gediş-gəliş rahat olar. Tələbə yataqxanası xarici tələbələr üçün sərfəli olacaq. Bu, xarici ölkələrdən gələn tələbələrin say artımına da müsbət təsir edər. Yeni yataqxanaların tikilməsini daha məqsədəuyğun hesab edirəm, çünki mövcud bazanı yeniləmək uzun müddət çəkəcək, maliyyə də xərclənəcək. Bundansa müasir üslubda yeni yataqxanalar tikilsin.

**Məlahət Rzayeva**



# "Rusiya mediasına necə nüfuz etməyi düşünməliyik"

## Aqil Ələsgər: "Təəssüf ki, Rusiya mediasındakı azərbaycanlıların da bir çoxu ruslaşırlar"

**"Rusiya və mətbuatının Azərbaycana münasibəti artıq bəllidir". Bunu "Şərq"ə "Yeniçağ" Media Qrupunun rəhbəri Aqil Ələsgər deyib. Onun qənaətincə, şimal qonşumuzun ölkəmizə göstərdiyi davranışa 44 günlük Vətən müharibəsi zamanı da şahidlik etdik:**

"Eyni zamanda elə Birinci Qarabağ savaşında da rusların ermənilərə göstərdiyi dəstək ortada idi. Rəsmi Moskva hər zaman Ermənistanın yanında olub. Erməniləri Qafqaza gətirən, bu bölgədə problemin yaranmasına səbəb olan da elə Rusiyanın özüdür. Bu mənada onların düşmən ölkəyə ruporluq etmələri və erməni "ekspertlər"inin Azərbaycana qarşı bu kimi ittihamlar səsləndirməsinə şərait yaratmaları təəccüblü deyil.

Bir məsələ də var. Rəhmətlik jurnalist Orxan Camal Bakıya gələndə qonağımız olmuşdu. O, maraqlı bir statistikanı bizimlə bölüşmüşdü. Deyirdi ki, bu gün Rusiyada, onun mediasında rəhbər vəzifədə işləyən onlarla erməni jurnalist var. Biri "Sputnik"in baş redaktoru, erməni əsilli Marqarita Simonyandır. Bir çox erməni jurnalist, ictimai xadim var ki, Rusiyanın media siyasətinə ciddi təsir göstərə bilirlər. Orada rusdan daha çox erməni maraqlarını təbliğ edirlər. Bəs bizim kimimiz var?! Bu istiqamətdə düşünsək, yaxşı olar. Hazırda Türkiyə mətbuatı dünyaya açılan pəncərəmizdir.

Eyni zamanda Rusiya KİV-i çox ciddi bir media bazarıdır. Amma orada yoxuq. Təəssüf ki, Rusiya mediasındakı azərbaycanlıların da bir çoxu ruslaşırlar. Yəni erməniləşmə prosesi getmir, amma Azərbaycan mediasından azsaylı nümayəndənin oraya transferi ölkəmizə fayda vermir. Kölgələri ancaq öz üzərlərinə düşür. Bu yöndə fəaliyyət göstərmək daha arzuolunandır. Rusların mövqeyini tənqid etmək, "yıxıb, sürümək" çox asandır. Lakin biz həmin mediaya necə nüfuz edəcəyimiz barədə düşünməliyik".

*Qeyd edək ki, Rusiyanın "Rossiya 1" telekanalında yayımlanan "Kto protiv" siyasi tok-şousunda Azərbaycana qarşı təxribat xarakterli fikirlər səsləndirilib. Canlı yayımda çıxış edən erməni əsilli ekspert Araik Stepanyan iddia edib ki, guya, Azərbaycanın Birinci və İkinci Qarabağ müharibələrində ölkədə yaşayan azsaylı xalqların nümayəndələrini qəsdən ön cəbhəyə göndərib və bununla da onlardan xilas olmağa çalışıb.*

**Sücayət Mehti**

# Elm sahələri üzrə vahid reyestrin yaradılması ideyası yaxşıdır

## Bu, elmi mövzuların tənzimlənməsinə, çeşidlənməsinə, təkrarçılığın aradan qaldırılmasına kömək edə bilər



**Elm sahələri, onların çərçivəsində elmi istiqamətlər, elmi problemlər, elmi mövzular, elmi fəaliyyətlə məşğul olan müəssisələr, alimlər və s. haqqında ölkə üzrə vahid reyestrin yaradılması təklif edilir. Bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Rasim Əliquliyev danışıb.**

R.Əliquliyevin sözlərinə görə, vahid reyestr olmadığından elmi tədqiqatlar zamanı koordinasiya pozulur: "Bunun da nəticəsində ölkə üzrə elmi fəaliyyətin təşkili, koordinasiyası, menecmenti və maliyyələşdirilməsi, müxtəlif aspektlər üzrə təhlili və qiymətləndirilməsi, intellektual və digər resursların idarə olunması, səmərəli qərarların qəbul edilməsi istiqamətində ciddi problemlər yaranır. Hazırda elmi müəssisələrin fəaliyyəti haqqında illik hesabatların hazırlanması, çoxpilləli müzakirəsi və qiymətləndirilməsi proseduru çox bürokratik və qeyri-səmərəlidir. 1945-ci ildən tətbiq olunan bu hesabatlılıq proseduru müasir dövrün tələblərinə cavab vermir, vaxt itkisinə, bürokratik əngəllərə, intellektual resursların səmərəsiz istifadəsinə səbəb olur. Hər ilin noyabr ayından başlayan hesabat marafonu "əməkdaş laboratoriya - elmi şura - elmi bölmə - rəyasət heyəti - ümumi yığıncaq" marşrutu üzrə növbəti ilin aprel ayının sonunadək davam edir. Halbuki müasir texnologiyaların və elmmetrik mexanizmlərin köməyi ilə elmi müəssisələrin də, alimlərin də, elm sahələrinin cari vəziyyətini də çox qısa müddətdə qiymətləndirmək, qərarların qəbulu üçün müəyyən təkliflər və

*Əhməd Qəşəmoğlu: "Biz çalışmalıyıq ki, Akademiya ölkənin inkişafına, tərəqqisinə fayda verəcək elmi-tədqiqatlara imza atsın. Ölkədə elmi-tədqiqat mərkəzlərinin yaradılmasına ehtiyac var"*

tövsiyələr işləmək olar. Hazırda ölkə miqyasında elmi fəaliyyətin müxtəlif aspektlər üzrə qiymətləndirilməsi klassik yanaşmalara subyektiv mülahizələrə əsaslanır və müasir dövrün reallıqlarının tələblərinə cavab vermir".

Akademik hesab edir ki, bu problemin həlli üçün, ilk növbədə elmi müəssisənin plan üzrə fəaliyyət istiqamətləri təhlil edilməlidir: "Elmi müəssisənin hər bir fəaliyyət istiqaməti üçün məxsusi qiymətləndirmə mexanizmi işlənməlidir. Elmi müəssisənin fəaliyyətinin kompleks qiymətləndirilməsi üçün multikriterial qiymətləndirmə metodikası (fəaliyyət istiqamətinin vaciblik dərəcəsi) işlənməlidir. Bu elmmetrik texnologiyaların əsasında elmi müəssisələrin fəaliyyətini ayrı-ayrı istiqamətlər üzrə və kompleks qiymətləndirmək olar".

**Fəlsəfə doktoru Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında ideyanın müsbət olduğunu dedi:**

- Reyestrin yaradılması təklifi, əlbəttə müsbətdir. Amma baxır reyestrə kim nəzarət edəcək, necə tərtib ediləcək. Bu iş lazım olan, gərəkən formada təşkil edilməlidir. Qarşıya konkret məqsəd qoyulmalıdır ki, reyestrin yaradılmasından gözləntilər nədir. Vahid reyestrin yaradılması elmi mövzuların tənzimlənməsinə, çeşidlənməsinə, təkrarçılığın aradan qaldırılmasına kömək edə bilər. Lakin Akademiyada fundamental dəyişikliklərə ehtiyac var. Hər şöbədə 15-20 nəfər işləyir, ilin sonunda hesabat hazırlayıb təqdim edirlər, bununla da sanki iş bitmiş hesab edilir. Elmi işlər çox zaman bir-birini təkrarlayan, ya da ciddi əhəmiyyət daşımayan mövzularda olur. Biz çalışmalıyıq ki, Akademiya ölkənin inkişafına, tərəqqisinə fayda verəcək elmi-tədqiqatlara imza atsın. Ölkədə elmi-tədqiqat mərkəzlərinin yaradılmasına ehtiyac var. Mən bunu dəfələrlə demişəm, yenə deyirəm, amma sanki kimsə eşitmir. Akademiyanın buna imkanları var. Akademiyanın hazırda mövcud olan şöbələrdən bəzisinin profilini dəyişməklə, onları cəmiyyətdə özünü göstərən problemlərin həlli istiqamətində ciddi elmi tədqiqatlara yönəltməklə bu işi təşkil etmək mümkündür. Təsəvvür edə bilməzsiniz ki, elə alimlər var, elmi tədqiqatın tələblərinin nədən ibarət olduğunu bilmir. Cəmiyyətimizi narahat edən problemlərin həllinə yönələn və ölkənin inkişafına xidmət göstərəcək elmi-tədqiqatlar aparılmalıdır. Və Akademiya bununla bağlı dövlət qarşısında hesabat verməlidir.

**Məlahət Rzayeva**

## Hüseynə uğurlar

**Əlizadə Hüseyn Tural oğlu Bakının Nərimanov rayonundakı 193 saylı tam orta məktəbin 2-ci sinif şagirdidir. Dərslərindən həmişə yüksək qiymətlər alır. Yaşıdları ilə ünsiyyəti, onlarla müxtəlif oyunlar oynamağı çox sevir.**

Hüseyn kiçik hekayələr də yazır. O, burada təbiətdən, heyvanların "xasiyyətindən", dostluqdan, xeyirxahlıqdan danışmağı daha çox xoşlayır. Həmin hekayələrin bəziləri mətbuatda dərc edilib. Balaca Hüseyn həm də şəkil çəkməyə böyük həvəs göstərir. Azərbaycan Rəssamlıq Akademiyasının Uşaq studiyasında təhsil alır. Rəsmlərində də elə o, təbiətin rəngarəngliyi ilə dil tapmağa çalışır. Onu da deyək ki, Hüseynin bir babası yazıçı, o birisi isə rəssamdır.

**Elə hər iki sənət yolunda da Hüseynə uğurlu addımlar arzu edirik.**








**Elanlar**

Useynov Rüfət Əliabbas oğluna Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş Şəhadətnamə (VÖEN) № 1803115932 itdiyi üçün etibarsız sayılır.

Həsənova Lamiyə Canpolad qızına verilmiş AD-0038069 hərbi bilet itdiyi üçün etibarsız sayılır.

İsrafilov Azər Telman oğluna məxsus "Şərur" Mənzil-Tikinti Kooperativi tərəfindən verilmiş giriş 1, mərtəbə 6, 21 saylı müqavilə itdiyi üçün etibarsız sayılır.

Aslanov Rahib Əminağa oğluna Bakı şəhəri, Yasamal rayonu, Zərdabi küçəsi 3166 məhəllədə yerləşən 2-ci yaşayış binasının, 11-ci mərtəbəsindəki, ümumi sahəsi 114,7 kv.m olan, 74 saylı, 3 (üç) otaqlı mənzilin maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.


# Tikinti materialları mart ayından sonra bahalaşacaq

## Çünki iki aydan sonra yeni tikinti mövsümü başlayacaq və sahibkarlar buna hazırlaşırlar

**Azərbaycanda tikinti materialları ucuzlaşıb. Bunu "Trend"ə açıqlamasında əmlak eksperti Ramil Osmanlı deyib.**

Onun sözlərinə görə, ucuzlaşmalar əsasən taxta materiallarında qeydə alınır: "Belə ki, sahibkarlar qiymət ucuzlaşmasını mövsümlə əlaqələndirirlər. Bildirirlər ki, qış aylarında tikinti materiallarına tələbat azalır və bazarda ucuzlaşma baş verir. Ancaq qiymətlərin bu qədər ucuzlaşması təəccüblüdür. Fevral ayından etibarən tikinti mövsümündə canlanma baş verəcək. Qiymətlər indiki kimi qalarsa, bu, böyük göstərici olar".

Ekspertin sözlərinə görə, ötən ilin son rübündə taxtanın 1 kubmetrinin qiyməti ötən il 430-450 manata çatmışdı: "Hazırda isə 330 manata almaq mümkündür. Diktlərin də qiymətində azalma müşahidə olunur. 18 mm-lik diktin qiyməti 40 manatdan 20-25 manata satılır. Ümumiyyətlə, taxta və taxtadan hazırlanan materialların qiymətlərində ucuzlaşma var. Bundan başqa, dam örtüklərinin qiymətlərində də 3 manat ucuzlaşma var".

Qeyd edək ki, Dövlət Statistika Komitəsindən



verilən məlumata əsasən, ötən il tikinti materiallarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 1 milyard 85,7 milyon manat olmaqla, 2021-ci illə müqayisədə 12,6 faiz artım olub.

**Əmlak bazarı üzrə ekspert Ramil Qasımzadə isə deyib ki, Azərbaycanda ötən il tikinti materiallarının qiymətləri Rusiya-Ukrayna müharibəsinin fonunda sürətlə artsa da, son iki ayda sabitləşib. Belə ki, müharibə başlayanda tədarüklə bağlı yaranmış çətinliklər artıq aradan qalxmaq üzrədir, yəni Rusiyadan Azərbaycana kifayət qədər tikinti materialı gəlir:** "Bundan başqa, adətən, qış aylarında tikinti materiallarına tələbat azalır və bazarda ucuzlaşma baş verir. Yəqin ki, biz mart ayından başlayaraq qiymətlərdə yenidən artım müşahidə edəcəyik. Çünki iki aydan sonra yeni tikinti mövsümü başlayacaq və sahibkarlar buna hazırlaşırlar. Yəni indi müşahidə olunan qiymət azalmaları müvəqqətidir".

Ekspertin sözlərinə görə, bazarda zavod istehsalı olan armaturun 1 tonunun qiyməti 1 350-1 400 manatdan 1 200 manata düşüb, sex istehsalı olan armaturun 1 tonu isə həmişəki kimi 800-900 manata təklif olunur.

Taxtanın 1 kubmetrini isə 330 manata almaq mümkündür. Halbuki qiymət ötən il 400-450 manata çatmışdı. Diktlərin də qiymətində azalma müşahidə olunur. 45-48 manat olan diktlər hazırda 22-24 manata satılır".

**Şəymən**

# Valideynlər də deputatların narahatlığını dəstəkləyir

## Poliklinikalarda həkimlər uşaqlara formal sağlamlıq sənədi verirlər

**"Bu gün məktəblərdə uşaqlar arasında hansısa xəstəliklər gizli qalır". Bunu Milli Məclisin Səhiyyə komitəsinin dünənki iclasında deputat Kamilə Əliyeva deyib.**

**O bildirib ki, "Uşaqların icbari dispanserizasiyası haqqında" qanunumuz var: "Amma uşaqlara yoxlanışda ancaq sağlam olduqları yazılır. Bu gün mediada hər gün eşidirik ki, hansısa məktəbdə uşaq ölüb. Bu qanunla bağlı bir dinləmə keçirək və bu məsələni müzakirə edək".**

Komitə sədri Əhliman Əmiraslanov bildirib ki, bu, çox vacib məsələdir: "Tək uşaqların yox, ölkədə bütün insanların dispanserizasiyası məsələsi çox vacibdir. Mən də mətbuatdan uşaqların ölüm xəbərlərini oxuyuram. Deməli, bu məsələyə səthi yanaşılır. Bunu aidiyyəti qurumlarla müzakirə etmək olar".

Valideynlər arasında keçirilən sorğu da deputatların narahatlığına əsas verir. İddialara görə, icbari dispanserizasiya vərəqi poliklinika həkimləri tərəfindən formal olaraq "sağlamdır" şəklində doldurulur. Proses şəffaf olmadığı üçün də valideynlər ümumiyyətlə uşaqlarını poliklinikalara aparıb həkim yoxlamasından keçirməkdə maraqlı olmurlar. Belə ki, uşaq xəstə olsa belə həkimlər ötəri yoxlayıb müayinə vərəqəsinə "sağlam" olmasını yazırlar. Hətta bəzi həkimlər poliklinikalara müraciət edən valideynlərdən pul umurlar.

**Terapevt Vəfa Əhmədova isə "Şərq"ə açıqlamasında deyib ki, uşaqların sağlamlığına nəzarət etmək üçün ən yaxşı vasitə onların vaxtaşırı müayinə olunmasıdır:** "Uşaqların dispanserizasiyası - uşaqların sağlamlığının qorunması, normal fiziki inkişafının təmin edilməsi və xəstəliyin ilkin mərhələdə aşkar edilməsi məqsədilə kompleks profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərdən ibarət olan aktiv dinamik müşahidə sistemidir. Xəstəliklərin əksəriyyətinin təməli məhz uşaq yaşında qoyulur. Profilaktik müayinələrdə isə uşaqlar arasında xəstəliklərə səbəb olan risk faktorlarını aşkar etmək və üzərinə düşüb qarşısını almaq mümkündür. Bu baxımdan uşaqlar arasında icbari tibbi müayinələrin aparılmasının, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsinin və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinin müstəsna əhəmiyyəti var".



*Həkimin sözlərinə görə, ildə bir dəfədən az olmayaraq uşaqlar icbari dispanserizasiya olmalıdır:* "Hazırda poliklinikalarda mövcud qanuna nə dərəcədə riayət olunduğunu deyə bilmərəm. Amma uşaqlar bizim millətin gələcəyidir, onların sağlamlığı nə qədər möhkəm, nə qədər nəzarət altında olarsa, bizim gələcəyimiz də daha möhkəm olar. Valideynlər özləri uşağı yoxlanışa aparmağa maraqlı olmalıdır. Hətta həkimlər başdansovdu müayinə etsələr belə valideyn etiraz etsin ki, uşaqlar düzgün yoxlanılsın. Əgər prosedur düzgün və şəffaf aparılsa, hər bir valideyn də uşağının sağlamlığı barədə ətraflı məlumat əldə etmiş olar".

Konkret olaraq məktəbyaşlı uşaqların qəfil ölüm səbəbinə gəldikdə isə V.Əhmədova deyib ki, şagirdlər arasında ölüm hallarının artmasının müxtəlif səbəbləri var: "Orta məktəblərdə ölüm halları hər zaman olub.

Məktəblilər arasında qəfil ölümün artmasının səbəblərindən biri stresdir. Daha sonra orqanizmdə gedən paralel xəstəliklər - şəkərli diabet, yüksək qan təzyiqi və sairdir. Bu xəstəliklər zamanında müalicə olunmadığı halda qəfil ölümlərə, infarkta gətirib çıxara bilir. Bu, əvvəl də var idi, indi də var. Əsas da məktəblilərə psixoloji təzyiq edilməsin. Bəzən uşaqlara dərsləri ilə bağlı təzyiq edirlər, bu da onlarda stres yaradır. Uşaqları bütün gün gərginlikdə saxlamaq olmaz ki, dərs oxusun. Belə olanda uşaqlar qorxur, yuxusuzluq yaranır, ürək döyüntüsü artır, həttа funksional dəyişikliklər də yarana bilər. Uşaqlarda qəfil ölümün digər səbəbi anadangəlmə ürək qüsurlarıdır. Ciddi ürək qüsurları vaxtında müayinə və müalicə olunmadığından, birdən-birə qəfil ölüm halları ola bilər".

**Şəymən Bayramova**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 226

## Qarabağ xanına məxsus bayraq bərpa olunub



**Qarabağ xanı Mehdiqulu xana məxsus bayrağın sapı bərpa olunub.**

Bu barədə APA-ya Milli Tarix Muzeyindən məlumat verilib.

Qeyd olunub ki, sözügedən bayrağın sapı bərpaçı-rəssam Əjdər Qafarov tərəfindən təmizlənərək, qoruyucu maddə ilə örtülüb.

Eksponatın ucluq hissəsindəki qotazı isə muzeyin bərpaçı-rəssamı Qənirə Məmmədova tərəfindən demontaj edilib.

Üzərində olan güləbətin tikmələri, qaytanı, baftası mexaniki və kimyəvi üsulla təmizlənib, qopan ipləri yerinə bərpa edilərək, eksponata ikinci həyat verilib.

*Qeyd edək ki, bayraq 1928-ci ildə Azərbaycan Tarixi Muzeyinin direktoru Davud Şərifovun səyləri nəticəsində Azərbaycana gətirilib. Buna qədər bayraq Tiflisdəki Qafqaz Hərbi Tarix Muzeyində saxlanılırdı. Bayraq Rusiya imperatorlarının məhz Cavanşir sülaləsindən olan Azərbaycan xanlarının əzəli Azərbaycan ərazisi olan Qarabağın hakimləri kimi tanımalarının maddi sübutudur. Bayraq muzeyə hakimiyyət rəmzi olaraq hədiyyə edilib.*

## Müayinə olunmağa quzusu ilə gəldi

### Nazir Fahrettin Kocanın paylaşımı maraqla qarşılanıb



**Türkiyənin səhiyyə naziri Fahrettin Koca quzu ilə xəstəxanaya gələn xəstənin videosunu sosial media hesabından paylaşıb.**

Ankara Təhsil və Araşdırma Xəstəxanası Kardiologiya poliklinikasına müayinə üçün gedən vətəndaşın quzuya butulka ilə yem verdiyi görünür.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Fahrettin Koca sosial media hesabında Ankara xəstəxanasında cib telefonu ilə çəkilmiş şəkli paylaşıb.

Görüntülərdə müayinə olunmaq üçün gözləyən qadının xəstəxanada butulka ilə quzunu qidalandırdığı görüntülənib. Bu vaxt balaca uşaq maraqla quzuya baxır.

Nazir Koca videoya "Quzusu müayinəyə gələndə belə ona butulka ilə qida verən Aynur xanımı tək buraxmayıb", - deyə qeyd yazıb.

Nazir Fahrettin Kocanın paylaşımı maraqla qarşılanıb, xeyli bəyənmə alıb.

**Turan**

## Paris Hilton ana oldu

### "Səni sözlərlə ifadə edilə bilməyəcək qədər çox sevirəm"



**Müğənni və realiti-şou ulduzu Paris Hilton əri Karter Reumdan uşaq dünyaya gətirdiklərini paylaşıb.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, ilk dəfə analıq həyacanını yaşayan ulduz Reum və surroqat ana sayəsində oğlan uşağının dünyaya gəldiyini açıqlayıb.**

**41 yaşlı Hilton People jurnalına müsahibəsində "Ana olmaq həmişə arzum olub və mən Karterlə birbirimizi tapdığımız üçün çox xoşbəxtəm", - deyib.**

***Qeyd edək ki, 2021-ci ildə nişanlanan Hilton və Reum üç günlük toyla evləniblər. Körpəsinin əlini sosial media hesabında paylaşan ulduz "Səni sözlərlə ifadə edilə bilməyəcək qədər çox sevirəm" qeydini yazıb.***

**Turan**

## 9 qəpik mənəvi təzminat ödəniləcək

### Məhkəmə Mustafa Kəsərlə Bülənt Ersoyun şikayətlərinə haqq qazandırıb



**Məhkəmə "Show TV"də yayımdan qaldırılan "Benzemez kimse bize" proqramının aparıcılarının şikayəti ilə bağlı qərar verib.**

**Axşam.az xəbər verir ki, məhkəmə fikir ayrılığı səbəbindən bir-birindən təzminat tələb edən aparıcılar Mustafa Kəsərlə Bülənt Ersoyun şikayətlərinə haqq qazandırıb. Nəticədə tərəflərin bir-birinə 1 lirə ( 9 qəpik) mənəvi təzminat ödəməsi haqda qərar qəbul olunub.**

***Qeyd edək ki, proqram bağlandıqdan sonra Keser bunu Büləntin yersiz kaprizləri ilə əlaqələndirib və onu məhkəməyə verib. Bülənt isə ona qarşı işlədilən ifadələrə görə travma yaşadığını, kədərləndiyini və cəmiyyət qarşısında nüfuzunun sarsıldığını bildirərək eyni addımı atıb.***

## Özcan Dəniz gizli evləndi



**Türkiyəli müğənni Özcan Dəniz iranlı sevgilisi Samar Dadqara ilə evlənib.**

**Axşam.az xəbər verir ki, cütlüyün toyu ifaçının evində baş tutub. Toyda ikilinin ailə üzvləri və yaxınları iştirak edib.**

***Qeyd edək ki, daha əvvəl iki dəfə ailəli olan Ö.Dəniz***




# Kral ailəsinin yeraltı sığınacağı

## Bu sığınacaq nüvə fəlakəti baş verərsə, nə az, nə çox - tam 4 min vəzifəli şəxsin gizlənməsini təmin edəcəkdi

**Böyük Britaniyada kral ailəsinin vaxtilə inşa etdirdiyi yeraltı sığınacaq aşkarlanıb. Sığınacağın "soyuq mühairbə" dönəmində nüvə silahından qorunmaq məqsədilə inşa edildiyi məlum olub. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, "soyuq müharibə" dönəmində bir çox dövlətlər nüvə qiyamətinin soyuq nəfəsini hiss edərək müxtəlif tədbirlər görmək qərarına gəlib.**

Görülən tədbirlər sırasında daha təhlükəsiz ola biləcək yeraltı sığınacaqların inşası da vardı. Böyük Britaniya da ilk hədəflərdən biri ola biləcəyi ehtimalı baxımından qabaqlayıcı tədbir görməkdən vaz keçməyib və kral ailəsinin toplaşa biləcəyi, uzun müddət təhlükəsiz və rahat bir şəraitdə yaşamın davamını mümkün edən yeraltı sığınacaq tikilib. Bunlardan biri B.Britaniyanın qərbindəki Corsham sığınacağıdır. Bu sığınacaq nüvə fəlakəti baş verərsə, nə az, nə çox - tam 4 min vəzifəli şəxsin gizlənməsini təmin edəcəkdi. Sığınacaq 1950-ci illərin sonunda inşa edildi. İçərisində isə "yox" dedirdəcək yoxdur. Xəstəxanası, iş kabinetləri, kilsəsi, yeməkxanası, istirahət otaqları, tunellər arasında hərəkət edəcək elektrikli avtomobillər, 12 yanacaq deposuyla sığınacaq tam 3 ay 4 min şəxsi qoruya biləcək səviyyədə inşa edilib. Zaman 1991-ci ili haqladıqda isə SSRİ tarixin arxivinə getdi, "soyuq müharibə" də bitmiş hesab edildi. Miyardlar sərf edilən hərbi xərclərlə birlikdə sığınacaq da əhəmiyyətini itirdi. B.Britaniya hökuməti bu cür sığınacaqların qorunub saxlanmasına maliyyə ayrılmasının mənasızlığını anladı və bununla da sığınacaqların ləğvinə başlandı. 2004-cü ildə Böyük Britaniya Müdafiə Nazirliyi sığınacağın ləğvini rəsmən elan etdi. Və sığınacaq üzərindəki məxfilik də aradan qaldırıldı. Hazırda



Corsham sığınacağı tərk edilmiş bir tikilidir. Onun nə vaxtsa varlığını sübut edən qalın hörgülü divarlarıdır.

**Məlahət**



## Foto çəkilişində təbii gülümsəmə niyə alınmır?

### Çünki süni gülüş zamanı təbii gülüşün ortaya çıxmasına səbəb olan əzələlərin heç biri iştirak etmir

**"Sehirli xalat" filmində pioner Rəşidin "Zərifə, gülümsə!" müraciəti az qala bütün fotoçəkilişlərin şüarına çevrilib. Foto çəkən qarşısındakıların gülümsəməsini, daha rahat, təbii görünmələrini istəyirsə, onlardan özlərini rahat hiss edərək gülümsəmələrini xahiş edir. Fotosu çəkilən insanlar niyə ciddi görkəm almağa çalışır, belə deyək; özlərini "qurudurlar"? Bəziləri də hansısa fotolarını bəyənməyib "üzümdən düşən "min parça" deyərək o şəkilləri cırıb atır.**

Foto çəkilərkən təbii halda gülümsəməni çətinləşdirən səbəblərə Vebtekno aydınlıq gətirib. "Şərq" "NTV,com.tr"yə istinadən bu səbəbləri açıqlayır. Elektrofiziologiya sahəsində cəlbedici tədqiqatlara imza atan fransız nevroloq Guillaume Duchenne hələ 1860-cı ildə saxta və təbii gülüşlərlə bağlı təhqiqatlar aparıb. Nevroloq "İnsanın üz ifadəsinin mexanizmləri" adlı əsərində bu məsələyə aydınlıq gətirərək insanın keçirdiyi hisslərlə üz ifadəsi arasındakı əlaqəni göstərib. Bu sahədə apardığı çoxsaylı tədqiqatlara görə, sevincli anlarda yaranan təbii gülüşə alimin adı verilib. Təbii gülüşə "Duchenne gülümsəməsi" deyilir. Elə isə obyektivə tuş gəlmiş gülüşün saxta, yoxsa süni olduğunu necə anlaya bilərik? Təbii gülüşlər zamanı dodaqların kənarları yuxarıya doğru dartılır. İnsan gülərkən üzdəki hansı əzələlər fəaliyyətdə olur. Gülüş deyildikdə adətən yay şəklini almış ağız göz önünə gəlir. Gülümsəyərkən dodaqların kənarları ziqomatik mayor əzələlər sayəsində yuxarıya doğru dartılır. Ancaq məsələ bu qədər bəsit deyil. Gülərkən gözlərimiz də qıyılır. Bu isə üzdəki "orbicularis oculi" adlı əzələ sayəsində baş verir. İnsan beyni "ən ağıllı" orqan olaraq süni gülüşlə təbii gülüşü də bir-birindən ayırmağı bacarır. Süni gülüş zamanı təbii gülüşün ortaya çıxmasına səbəb olan əzələlərin heç biri iştirak etmir. İnsan beyni süni gülüşə etiraz edir, əzələlər hərəkətsiz qalır. Yəni əzələlər süni işə "qol qoymur". Ona görə də diqqətlə baxıldığında təbii gülüşlə süni gülüşü ayırd etmək çətin deyil. Beyin üz ifadəsinin dəyişməsinə səbəb olan duyğuları hiss etməkdə müdhiş bacarığa sahibdir. Beyni aldatmaq mümkün deyil. Gülüşün süni olduğunu bilmək istəyirsinizsə, "gülən" insanın göz və yanaq əzələlərinə də diqqət edin. Göz və yanaq əzələləri eyni işi görmürsə, biri sakit, digəri "güləyəndirsə", demək, bu, süni gülüşdür. Təbii gülüşün adı olduğu kimi saxta gülüşlərə ad verilib: "Pan Amerikan gülümsəməsi". Bu ad "Pan Amerikan Havayolları" hosteslərinin (təyyarədə sərnişinlərin rahatlığını təmin etmək vəzifəsi daşıyan xidmətçilər) sərnişinlərə iltifat göstərmək məqsədilə daim gülümsədikləri üçün yaranıb. Son zamanlar "botoks gülümsəməsi" də dövrəyə daxil olub. Üzündə, ağız və göz kənarlarında botoks etdirənlər də daim "gülür". Bu da saxta gülüşün bir növüdür.

**Məlahət**

## Yanlış oturmaq korluğa səbəb olur

### Boyun nahiyəsinin qeyri-sabitliyi və skolioz görmə qabiliyyətinin zəifləməsinə gətirib çıxarır



**Qeyri-düzgün oturuş onurğanın döş və boyun fəqərələri nahiyəsinin yerdəyişməsinə səbəb olur. Bu da beyin qan dövranını və görmə qabiliyyətini pisləşdirir. Böyük ehtimalla vegetovaskulyar distoniya baş verə bilər ki, bu da şiddətli baş ağrıları və miopiyaya yol aça bilər. Bu sözləri reabilitoloq, fizioterapevt Pərvin Əkbərov deyib.**

Həkimin sözlərinə görə, duruş pozğunluqlarının görmə qabiliyyətinə təsiri artıq alimlər tərəfindən sübut edilib, öz təsdiqini tapıb:

"Bədənimizin bütün sistemlərinin bir-birinə bağlı olduğunu xatırlamaq vacibdir. Onurğanın sağlamlıq vəziyyəti görməyə birbaşa təsir göstərir. Belə ki, məktəblilərin parta arxasında yanlış oturuşu və ya kompüterlə işləyərkən monitora qeyri-düzgün baxışı başın yanlış mövqeyinə səbəb olur, bu da öz növbəsində beyin qan dövranının pisləşməsinə gətirib çıxarır. Belə problemlərin səbəbi ikinci boyun fəqərəsindəki (axis) pozğunluqlardır, bir fəqərənin disfunksiyası isə aşağıda yerləşən digər boyun fəqərələrində pozğunluqlara yol açır. Bütün orqanlar bir-biri ilə əlaqəli olduğundan, boyun nahiyəsinin qeyri-sabitliyi və skolioz öz növbəsində görmə qabiliyyətinin zəifləməsinə gətirib çıxarır. Bütün bunlar miyopiyanın inkişafı üçün zəmin yaradır".

**Reabilitoloq deyib ki, skoliozun vaxtında aşkarlanması və müalicəsi öz növbəsində xəstənin görmə qabiliyyətinə müsbət təsir edir:** "Vaxtında müayinə və inteqrasiya olunmuş yanaşma problemləri vaxtında müəyyən etməyə və arzuolunmaz xəstəliklərin inkişafının qarşısını almağa kömək edəcəkdir! Nə qədər tez tədbir görsəniz, uğurlu sağalma şansınız bir o qədər yüksək olar. Yeri gəlmişkən, skolioz təkcə görmə qabiliyyətinə deyil, həm də əksər daxili orqanların fəaliyyətinə təsir göstərir".

**Şəymən**

## Mart dünya üzrə uçuşlar üçün ən ucuz aydır



**Britaniyanın "Destination2" turizm şirkətinin analitikləri mart ayını 2023-cü ildə dünya üzrə uçuşlar üçün ən ucuz ay adlandırıblar.**

Oxu.az xəbər verir ki, araşdırmaya görə, mart ayında Türkiyə, Yunanıstan, Xorvatiya, İslandiya, Kipr və Maltaya ucuz qiymətə biletlər tapmaq olar.

Bundan əlavə, mütəxəssislər yazda Barbados, Mavriki və Maldiv adalarına getməyi məsləhət görürlər. Belə ki, bu çimərlik ölkələrinə biletlər aprel ayında ən ucuz olacaq.